Demokratiya, güclü iqtisadiyyat - Dağlıq Qarabağın açarıdır!

DEMOKRATİK, MÜSTƏQİL QƏZET

# BAKI XƏBƏR

www.baki-xeber.com

17 YANVAR 2020-ci il

№ 8 (4139)

Qiyməti 40 qəpik

Həftədə 5 dəfə çıxır

Qəzet 2003-cü ildən nəşr olunur

# 9 FEVRAL PARLAMENT SEÇKİLƏRİNİN ÖLKƏYƏ GƏTİRƏCƏYİ YENİLİKLƏR BARƏDƏ BEYNƏLXALQ ANALİTİK MÜLAHİZƏLƏR...

səh. 5



## Avropa Şurası 9 fevral parlament seçkilərinə böyük marağını xüsusi konfransla nümayiş etdirdi...

səh. 3

Prezident yükdaşımalarda Azərbaycanın öz şirkətlərinin çox zəif iştirakını tənqid etdi - problem nədədir...

səh. 11

Maliyyə Palatasının yarıtmazlığı, Mərkəzi Bankın yeni səlahiyyətləri və Prezidentin "başlı-başına buraxa bilmərik" hökmü...

səh. 10

Regionların da avtobus təsərrüfatının yeniləşdirilməsi Prezidentin gündəliyinə düşdü - Gəncə...

səh. 12

Öz seçki platformasını yaza bilməyən, plagiatlıq edən bəzi namizədlər...

səh. 4

İranın ABŞ-a hər yerdə və hər cür zərbə vurmaq planının tam detalları hələ açıqlanmır...

səh. 7

Qaz smart-kartlarında yeni maxinasiyalar - "Azəriqaz" abonentdən xəbərsiz karta pul qoyur, deyəcəksiniz bunun nəyi pisdir, ancaq...

səh. 13

Ölkədə MTK-ların bir mənzili çox müştəriyə satmaq cinayətlərinin kökü hələ kəsilməyibmiş...

səh. 12

Narkoloji Dispanserdə dərman qıtlığı - nə baş verir...

səh. 15



Avroparlamentin məcburi icra gücünə malik yeni «Qarabağ sənədi» büsbütün Ermənistana aiddir...

səh. 2

Azərbaycan hərbisini üstələmək üçün Paşinyanın aldığı son qırıcı və raketlər rişxənd obyekti oldu...

səh. 9



Rusiyada tam hökumət istefasının sirləri açılır - dövlət quruluşu dəyişir, Putin yeni dövrün də lideri olacaq...

səh. 8

Avropa Parlamenti Şərq Tərəfdaşlığı ölkələrindəki münaqişələrə vahid yanaşma metodunu dəstəklədi, Ermənistanın təklifi keçmədi...

səh. 4



Qarşıdakı iki ildə Abşeron yatağı Azərbaycanın qaz gəlirlərini nə qədər artıra bilər - Prezidentin anonsundan doğan müzakirələr...

səh. 11



Misir polisindən azad türk mediası üzərinə misilsiz repressiya yürüşü - "Anadolu" agentliyinin "suçu nə"...

səh. 6



Akademiyanın dövlət büdcəsindən asılılığını azaltmağın yeni üsulu - İnnovasiya Fondu...

səh. 15



Azərbaycanda təmayüllü məktəb siniflərinin sayı sürətlə artır - prosesin mümkün nəticələri...

səh. 13





# "ASAN xidmət" Naxçıvanda da məskunlaşdı

**Prezident İlham Əliyev Naxçıvan şəhərində "ASAN xidmət" mərkəzinin layihələndirilməsi və tikintisi ilə bağlı tədbirlər haqqında sərəncam imzalayıb.**

Sərəncamda qeyd edilir ki, Naxçıvan şəhərində "ASAN xidmət" mərkəzinin layihələndirilməsi və tikintisi məqsədilə Azərbaycan Respublikasının 2020-ci il dövlət büdcəsində nəzərdə tutulmuş Azərbaycan Respublikası Prezidentinin ehtiyat fondundan Naxçıvan Muxtar Respublikasının Nazirlər Kabinetinə 8,8 milyon (səkkiz milyon səkkiz yüz min) manat ayrılsın. Maliyyə Nazirliyinə bu Sərəncamın 1-ci hissəsində göstərilən məbləğdə maliyyələşməni təmin etmək, Nazirlər Kabinetinə bu Sərəncamdan irəli gələn məsələləri həll etmək tapşırılır.



# Daxili Qoşunların əməliyyat müşavirəsində nazir Vilayət Eyvazov tapşırıqlar verdi

**Yanvarın 16-da Daxili İşlər Nazirliyində Daxili Qoşunların 2019-cu ildə xidməti-döyüş fəaliyyətinin yekunlarına həsr olunmuş naziryanı əməliyyat müşavirəsi keçirilib.**

Müşavirəni giriş sözü ilə açan daxili işlər naziri, general-polkovnik Vilayət Eyvazov dövlət başçısının ümumən daxili işlər orqanlarına, o cümlədən onun ayrılmaz tərkib hissəsi olan Daxili Qoşunların fəaliyyətinin təkmilləşdirilməsinə, maddi-texniki təminatının, kazarma-məişət şəraitinin daha da yaxşılaşdırılmasına daim xüsusi diqqət göstərdiyini vurğulayıb.

Nazir Qoşunların daxili sabitliyin qorunmasında xüsusi xidmətləri olduğunu diqqətə çatdıraraq, şəxsi heyətin ictimai asayişin və təhlükəsizliyin təminində, cinayətkarlığa qarşı mübarizədə, xüsusi əməliyyatların keçirilməsində fəal iştirakını, yüksək peşəkarlığa, döyüş və mənəvi-psixoloji hazırlığa malik bir quruma çevrildiyini məmnunluqla bildirib.

Daxili işlər nazirinin müavini - Daxili Qoşunların komandanı, general-leytenant Şahin Məmmədov xidməti-döyüş fəaliyyətinin yekunları barədə geniş məruzə ilə çıxış edib.

Komandan ötən il normativ-hüquqi bazanın təkmilləşdirilməsinin, təlimlərin real döyüş şəraitinə uyğunlaşdırılmasının, şəxsi heyətin nəzəri biliklərinin artırılmasının, onlara peşəkar praktiki vərdişlərin aşılanmasının, mənəvi-psixoloji və fiziki hazırlıq səviyyəsinin yüksəldilməsinin döyüş təliminin əsas vəzifələri olaraq həyata keçirildiyini diqqətə çatdırıb.

Müşavirəyə yekun vuran daxili işlər naziri V.Eyvazov şəxsi heyətin xidməti fəaliyyətinin yekunlarını yüksək qiymətləndirib, qarşıda duran vəzifələrdən danışıb, onların həlli yollarını göstərib, konkret tapşırıq və tövsiyələrini verib.

Hərbi hissələrdə idarəçilik fəaliyyətinin, döyüş xidmətinin təşkili və aparılmasının, hərbi qulluqçuların Vətənə və xalqa sədaqət ruhunda tərbiyə edilmələrinin, fiziki və döyüş hazırlığının daha da yüksəldilməsinin, ekstremal hallar da daxil olmaqla, onların istənilən əmr və göstərişlərin icrasına hər zaman hazır olmalarını tələb edən nazir əmin olduğunu bildirib ki, DQ-nın hərbi qulluqçuları qanunvericiliklə müəyyən edilmiş vəzifələrin və verilən tapşırıqların öhdəsindən bundan sonra da layiqincə gələcək.

# Avroparlamentin məcburi icra gücünə malik yeni "Qarabağ sənədi" büsbütün Ermənistana aiddir...

**Yanvarın 15-də Avropa Parlamentinin (AP) Strasburqda keçirilən plenar iclasında mütləq səs çoxluğu ilə "Aİ-nin xarici siyasət və təhlükəsizlik sahəsində ümumi siyasəti haqqında" qətnamə qəbul edilib. Sənədin 36-cı maddəsində "Şərq Tərəfdaşlığı"nın bütün ölkələrinin suverenliyi, ərazi bütövlüyü və siyasi müstəqilliyinin beynəlxalq hüququn norma və prinsiplərinə uyğun olaraq dəstəklənməsi göstərilir.**



Qeyd etmək vacibdir ki, beynəlxalq hüququn əsas elementlərinə ümumi yanaşmaya əsaslanan belə bir hüquqi tərif Azərbaycanın maraqlarına tam cavab verir.

Diqqətçəkən digər mühüm məqam odur ki, qətnamənin əsas məzmunu Moskvanın bilavasitə iştirakı ilə baş verən münaqişələrə aid olan anti-Rusiya hissəsindən ayrılıb. Bu, qətnamənin əhəmiyyətini qiymətləndirmək üçün sənədin həm siyasi, həm də hüquqi ağırlığının əsas göstəricilərindən biridir.

Göründüyü kimi, "Şərq Tərəfdaşlığı"nın gələcəyi ilə bağlı getdikcə güclənən müzakirələr fonunda, Avropa Birliyinin yeni seçilmiş qurumlarının mövqeyində aşkar bir dinamika var. Bu müzakirədə son dərəcə ifadəli məqam Prezident İlham Əliyev tərəfindən qoyulub. Qətnamənin yekun mətninin hazırlanmasında, müzakirəsində və səsverməsində Avropa Parlamentinin deputatları bu məsələni diqqətdə saxlayıblar. Sənəd bir daha inandırıcı şəkildə göstərdi ki, "Şərq Tərəfdaşlığı" üçün ortaq məxrəc iştirakçı ölkələrin beynəlxalq səviyyədə tanınmış sərhədlər daxilində siyasi müstəqilliyi, suverenliyi və ərazi bütövlüyüdür.

Qəbul edilən sənədin əhəmiyyətini "Bakı-Xəbər" üçün şərh edən beynəlxalq məsələlər üzrə ekspert Yeganə Hacıyevanın sözlərinə görə, qətnamə səsvermədə iştirak edən 704 deputatdan 454-nün lehinə səs verməsi ilə qəbul olunub: "Qətnamə yeni redaksiyada qəbul edilib. Dekabr ayında sənədə tərəfdaş dövlətlərin ərazi bütövlüyünün dəstəklənməsi ilə bağlı maddə əlavə edilib. Qətnamənin qaralama versiyası fərqli məzmunda olsa da, keçən il dekabr ayında Azərbaycan da daxil üzv ölkələrin bir neçəsinin təkidilə əlavələr edildi və qətnamə ilkin versiyadan mühüm məqamlara görə fərqlənən bir versiyada qəbul olundu. Sənədə tərəfdaş dövlətlərin ərazi bütövlüyünün dəstəklənməsi və münaqişədən əziyyət çəkən ölkələrin vətəndaşları olan qaçqın və məcburu köçkünlərə dəstəklə bağlı mühüm bir maddə də əlavə edildi.

Bu qətnaməni Azərbaycan üçün əhəmiyyətli edən bir neçə məqam var, ilk öncə budur ki, AP bu qətnamə ilə Avropa İttifaqının bütün "Şərq Tərəfdaşlığı" ölkələrinin beynəlxalq norma və prinsiplər əsasında beynəlxalq səviyyədə tanınan sərhədləri çərçivəsində suverenliyi, ərazi bütövlüyü və siyasi müstəqilliklərinin dəstəklənməsi üzrə öhdəliklərini təsdiq edir.

Onu qeyd edim ki, bu əlavələrin, həmçinin, Azərbaycan üçün işğal olunmuş ərazilərə səfərlər edən AP və digər Avropa qurumları rəsmilərinə və deputatlara qarşı Avropa İttifaqı tərəfindən sanksiyalar və viza qadağası tətbiq edilməsinə hüquqi əsasın işlənməsi üçün hüquqi baza rolunu oynayır.

Həmin maddə, həmçinin, "münaqişədən ziyan çəkən ölkələrin vətəndaşlarına - qaçqın və məcburi köçkünlərə dəstəyin" gücləndirilməsi haqqında fəaliyyətin qurulmasının əhəmiyyəti vurğulanır.

Ərazi bütövlüyü pozulmuş və cəlb olunduğu münaqişədə bir milyon qaçqın və məcburi köçkünü olan Azərbaycan bu qətnamənin qəbulu ilə bu istiqamətdə bir neçə mexanizm əldə edir.

Çox da detala varmadan onu qeyd edim ki, qətnamənin qəbul olunması ilə Azərbaycan "Ermənistanın Qarabağın və Azərbaycanın digər ərazilərinin işğalçısı qismində anti-Azərbaycan və işğalyönümlü sənəd və müzakirələr"in təşviqinin qarşısını almaq mexanizmləri əldə edir.

Həmçinin, Azərbaycan Avropa İttifaqı ilə əməkdaşlıq çərçivəsində Dağlıq Qarabağ münaqişəsindən zərər çəkmiş məcburi köçkünlərin problemlərinin həllində yeni mexanizmlər əldə edir".

***Məhəmmədəli QƏRİBLİ***

# Avropa Şurası 9 fevral parlament seçkilərinə böyük marağını xüsusi konfransla nümayiş etdirdi...

***Səadət Yusifova:*** *"Media nümayəndələri prosesi obyektiv işıqlandırmalı və bütün namizədlər üçün bərabər şərait yaratmalıdır"*



**Yanvarın 16-da Avropa Şurası Mərkəzi Seçki Komissiyası ilə birlikdə Bakıda "Seçkinin mediada işıqlandırılması" mövzusunda informasiya sessiyası təşkil edib. Baki-xeber.com Secki-2020.az saytına istinadən xəbər verir ki, tədbir Avropa Şurasının "Azərbaycan mediasında gender bərabərliyi və digər etik standartların təşviqi" layihəsi çərçivəsində keçirilib.**

Əsas məqsəd fevralın 9-da Azərbaycanda keçiriləcək parlament seçkiləri öncəsi jurnalistlərin gender bərabərliyinə də xüsusi diqqət yetirərək, seçkinin mediada işıqlandırılması sahəsində Avropa Şurası standartlarına dair məlumatlılığının artırılması olub. Tədbirdə 60-a yaxın media nümayəndəsi, eləcə də dövlət qurumlarının və diplomatik missiyaların nümayəndələri, beynəlxalq və yerli ekspertlər iştirak edib.

Sessiyada çıxış edən Mərkəzi Seçki Komissiyasının sədri Məzahir Pənahov bildirib ki, əvvəlki parlament seçkiləri ilə müqayisədə fevralın 9-da Milli Məclisə keçiriləcək seçkilərlə əlaqədar indiyədək rekord sayda deputatlığa namizəd qeydə alınıb. Yanvarın 15-nə olan məlumata görə, 1534 nəfərin deputatlığa namizədliyi qeydə alınıb.

MSK sədri qeyd edib ki, seçki prosesində mətbuat fəal iştirak edir. Bu da Azərbaycan dövlətinin şəffaf, demokratik seçkilərin keçirilməsi üçün ortaya qoyduğu siyasi iradənin ən bariz nümunələrindən biridir. Seçkilər mətbuat üçün açıq olmalıdır, KİV bu prosesdə önəmli rol oynamalıdır. Çünki istənilən ölkədə əhəmiyyətli tədbirin ictimaiyyətə çatdırılmasında ən önəmli rol mətbuatın üzərinə düşür. MSK da mətbuatla birgə işləməyə hər zaman xüsusi diqqət göstərir. Çalışmışıq ki, yerli mətbuatla yanaşı, beynəlxalq KİV nümayəndələri də bizim tədbirlərin işıqlandırılmasında fəal iştirak etsinlər.

Prezident Administrasiyasının Qeyri-hökumət təşkilatları ilə iş və kommunikasiya şöbəsinin müdir müavini Səadət Yusifova bildirib ki, 2019-cu il Azərbaycanda köklü islahatlar ili kimi yadda qalacaq. O, ölkəmizdə Prezident İlham Əliyev tərəfindən mütəmadi olaraq islahatların həyata keçirildiyini deyib. Qeyd edib ki, son islahatlar kəmiyyət və keyfiyyət baxımından əvvəlki illərdən xeyli fərqlənir. İslahatlar o qədər genişmiqyaslıdır ki, cəmiyyətin bütün institutlarına öz təsirini göstərəcək.

Prezident Administrasiyasının rəsmisi qeyd edib ki, fevralın 9-da keçiriləcək parlament seçkiləri daha çevik, peşəkar deputat korpusunun formalaşmasına yönəlib. Parlament seçkiləri taleyüklü proses olduğu üçün bütün siyasi partiyalar, vətəndaş cəmiyyəti fəallaşır və media da bunun tərkib hissəsidir.

Seçkiqabağı təşviqat aparmaq üçün 40-a yaxın KİV-in qeydiyyatdan keçdiyini diqqətə çatdıran Səadət Yusifova seçkilər dövründə medianın üzərinə böyük yük düşdüyünü bildirib. O əlavə edib ki, media nümayəndələri prosesi obyektiv işıqlandırmalı və bütün namizədlər üçün bərabər şərait yaratmalıdır. "İnanırıq ki, bu parlament seçkiləri Azərbaycanda seçki təcrübəsinin və media ənənələrinin inkişafına öz töhfəsi ilə yadda qalacaq", - deyə Prezident Administrasiyasının rəsmisi qeyd edib.

Avropa Şurasının Bakıdakı ofisinin rəhbəri Zoltan Hernyes bildirib ki, seçkilərin azad və demokratik keçirilməsində mətbuat mühüm rol oynayır. Avropa Şurası seçkilərin işıqlandırılması ilə bağlı üzv ölkələrə tövsiyələr verib. Bu tövsiyələr əsasən medianın rolu ilə bağlıdır. İstər seçkilərdən əvvəl, istər seçkilər zamanı, istərsə də seçkilərdən sonra media bu prosesdə fəal iştirak etməlidir. "Seçkilər dövründə bizimlə əməkdaşlığa görə Azərbaycan tərəfinə, o cümlədən Prezident Administrasiyasına, Mərkəzi Seçki Komissiyasına, Mətbuat Şurasına və digər qurumlara təşəkkür edirik", - deyə o əlavə edib.

Seçki dövründə mühüm məsələlərdən birinin də gender bərabərliyi olduğunu vurğulayan Zoltan Hernyes bildirib ki, gender bərabərliyi həmişə müzakirə mövzusu olub. Gender bərabərliyinin təmin olunması mühüm əhəmiyyət kəsb edir.

Milli Televiziya və Radio Şurasının sədri Nuşirəvan Məhərrəmov deyib ki, seçki prosesində medianın rolu qanunvericiliklə tənzimlənir. O, seçkiqabağı təşviqat zamanı televiziya və radio kanallarının əməl etməli olduğu məsələlərdən danışıb. Qeyd edib ki, Azərbaycanda özəl televiziya və radio kanalları təşviqatda iştirak edə bilməz. İctimai Televiziya seçkiqabağı təşviqatı ödənişli və ödənişsiz yolla həyata keçirir. Ödənişli efir vaxtı pulsuz efir vaxtından iki dəfə çox olmalıdır. Bəzən qiymətlərin yüksək olduğu iddia edilir. İctimai Televiziya tərəfindən müəyyən edilən ödənişli efir vaxtının bir saniyəsinin minimum 22 manat, maksimum 65 manat olması normal qiymətdir və mövcud reklam şərtlərinə uyğun hesablanıb.

Mətbuat Şurasının sədri Əflatun Amaşov bildirib ki, Şura səsvermə günü öz fəaliyyətini bir neçə istiqamətdə quracaq. Qurumun "qaynar xətt"i fəaliyyət göstərəcək. "Qaynar xətt"ə daxil olan məlumatlar əvvəlcə Mərkəzi Seçki Komissiyasına ötürüləcək. Əvvəlki seçkilərdə "qaynar xətt"ə daxil olan problemlər həllini tapıb, bu seçkilərdə də həllini tapacağına inanırıq. Mətbuat Şurasının üzvləri bölgələrdə də seçkinin monitorinqində iştirak edəcəklər.

Sonra Mərkəzi Seçki Komissiyasının üzvü Qabil Orucov "Seçkinin mediada işıqlandırılması: Azərbaycan qanunvericiliyi və təcrübəsi" mövzusunda məruzə ilə çıxış edib.

Tədbir çərçivəsində "Seçkinin mediada işıqlandırılmasına dair Avropa Şurası standartları", "Seçkinin mediada işıqlandırılmasına dair Azərbaycan qanunvericiliyi və təcrübəsi" və "Seçkinin mediada işıqlandırılması gender bərabərliyi kontekstində" mövzularında çıxışlar olub.

İnformasiya sessiyası müzakirələrlə davam edib.

# Öz seçki platformasını yaza bilməyən, plagiatlıq edən bəzi namizədlər...

**Fevralın 9-da ölkəmizdə keçiriləcək növbədənkənar parlament seçkilərinə qatılan namizədlərin təbliğat və təşviqat kampaniyasına yanvarın 17-dən start veriləcək. Seçki kampaniyası ərəfəsində namizədləri əsas düşündürən, məşğul edən "daşdan keçən" seçki platforması ilə seçicilər qarşısına çıxmaqdır.**



İndiyə qədər keçirilən parlament seçkilərində iştirak edən namizədlərin bir qismi pafoslu, bərli-bəzəkli seçki platformaları ilə çıxış etməyə üstünlük verirdilər.

Növbədənkənar parlament seçkilərində iştirak edən namizədlər də nəinki bərli-bəzəkli, pafoslu platformalar hazırlamaqdadırlar, hətta platformalarını sabiq namizədlərin platformaları əsasında hazırlatmaqda maraqlıdırlar. Məsələ burasındadır ki, bəzi namizədlər, ümumiyyətlə, platforma hazırlamağın yollarını bilmirlər. Hətta deyilənə görə, namizədlər arasında öz tərcümeyi-halını düz-əməlli yaza bilməyənlər də var. Öz seçki platformasını yaza bilməyən bəzi namizədlər var ki, bunun üçün dilçilərə, filoloq və hüquqşünaslara müraciət edirlər. Burada ola bilsin mənfi heç nə yoxdur. Amma bəzi namizədlərin keçən parlament seçkilərində namizəd olan bəzi şəxslərin platformalarına qarşı plagiatlıq etməsi halları mövcuddur. O insanlar öz platformalarını yazdırdıqları şəxslərə başqalarına aid platformaları təqdim edirlər ki, buradakı təqdimatdan, mətnlərdən istifadə edərək platforma hazırla.

Filologiya üzrə fəlsəfə doktoru Qiymət Məhərrəmli bizimlə söhbətində bildirdi ki, ümumiyyətlə, əvvəlki dövrlərdən fərqli olaraq, bu dəfə parlament seçkilərinə qatılan şəxslər arasında savadsızlar çoxdur. "Bilirsiniz, əvvəlki dövrlərdə daha çox savadlı, ictimai-siyasi mühitdə çəkisi olan şəxslər namizədliklərini irəli sürürdülər. Bu dəfə namizədlər arasında ictimai-siyasi mühitdə heç bir rolu olmayan adamlar da var. Bəzi şəxslər heç öz platformalarını yaza bilmirlər. Yəni namizəd olan şəxs seçiciyə özünü hansı şəkildə təqdim etməyi, seçiciyə hansı vədlər verəcəyini, onların səsini necə qazanacağını bilmir. Odur ki, beləli platforma yazdırmaq üçün daha çox Milli Elmlər Akademiyasının, BDU-nun müəllimlərinə üz tuturlar ki, onlar üçün platforma hazırlasınlar. Bəzi deputatlığa namizədlərin sabiq deputatlığa namizədlərin vaxtilə hazırlatdığı, günün tələbləri ilə səsləşməyən platformalarından istifadə etməklə öz seçki platformalarını hazırlatması halları var.

*Qiymət Məhərrəmli: "...günün tələbləri ilə səsləşməyən platformalarından istifadə etməklə..."*

*Azər Həsrət: "Bəzi deputatlığa namizədlərin başqasının platformasından plagiatlıq etməklə platforma hazırlaması ayıb bir şeydir"*

Siyasi şərhçi Azər Həsrət isə hesab edir ki, siyasi proseslər, seçki kampaniyası zamanı kimin kim olduğu üzə çıxır, əsl siyasət adamı ilə təsadüfi şəxslər bir-birindən seçilir. "Mənə görə, platforma hazırlamaq seçki kampaniyasında ən asan məsələdir. Bir platformanın tərtib edilməsi, seçicilərin qarşısına çıxarılması çətin iş deyil. Bunu uzaqbaşı 1-2 saata hazırlamaq mümkündür. Seçki platformasını yazmaq üçün cild-cild kitab oxumağa, materiala baxmağa ehtiyac yoxdur, sadəcə, bu platformanı seçicinin anlayacağı dildə yazıb təqdim edirsən. Burada çətin bir şey yoxdur. Öz seçki platformasını hazırlaya bilməyən, bu sahədə çətinliklə üzləşən şəxs isə nə deputatlığa namizədlik, nə də siyasət haqqında düşünməlidir. Çünki belə şəxslər sabah parlamentdə siyasət adamları ilə üz-üzə gəlib debatlarda, mübahisələrdə, müzakirələrdə iştirak edə bilməyəcəklər. Eyni zamanda, həmin adamlar beynəlxalq platformalarda heç bir söz danışa, kiminsə qarşısına çıxa bilməyəcəklər. Bəzi deputatlığa namizədlərin başqasının platformasından plagiatlıq etməklə platforma hazırlaması ayıb bir şeydir. Əlbəttə, biz kimdənsə, özümüzdən əvvəlki namizədlərdən, deputatlardan, siyasəti bilən adamlardan nəsə öyrənə, məsləhət ala bilərik. Bunlar yaxşıdır. Amma kiminsə platformasını gətirib "bunun üzərində işləyib mənim üçün platfoma hazırlayın" demək qəbuledilməzdir. Siyasətlə məşğul olan adamın indiyə qədər bir siyasi, elmi baqajı olmalıdır" - deyə A.Həsrət qeyd etdi.

***İradə SARIYEVA***

# Avropa Parlamenti Şərq Tərəfdaşlığı ölkələrindəki münaqişələrə vahid yanaşma metodunu dəstəklədi, Ermənistanın təklifi keçmədi...

**Yanvarın 16-da Avropa Parlamentinin Strasburqda keçirilən plenar sessiyasında Avropa İttifaqı Xarici Siyasət və Təhlükəsizlik məsələləri üzrə illik Hesabatın müzakirəsi olub. Bu Hesabat hər ilin sonunda AP-nin Xarici Əlaqələr Komitəsi tərəfindən hazırlanır və Plenar sessiyaya təqdim olunmazdan öncə siyasi qruplarda, daha sonra Komitənin özündə geniş müzakirə olunur.**



**Cavanşir FEYZİYEV**
*Aİ-Azərbaycan Parlament Əməkdaşlıq Komitəsinin həmsədri*

Müzakirələr zamanı AP üzvləri mənsub olduqları siyasi qruplar adından düzəlişlər və əlavələr etmək hüququna malikdirlər. Plenar sessiyanın müzakirəsinə təqdim olunana qədər bu Hesabatın üzərində kifayət qədər əlavə və düzəliş işləri aparılır.

Ənənəvi olaraq, bu Hesabatda Avropa İttifaqının ötən il ərzində xarici siyasət sahəsində apardığı fəaliyyət təhlil olunur və növbəti il üçün qarşıda duran vəzifələr, eləcə də beynəlxalq siyasətdə yer alan tendensiyalara münasibətdə Avropa İttifaqının strategiyası müəyyənləşdirilir. Hesabat AP-də müzakirə olunub qəbul edildikdən sonra Aİ-nın xarici siyasət fəaliyyəti üçün doktrinal sənəd rolunu oynayır. Bu baxımdan həmin sənədin hansı şəkildə qəbul olunması, xüsusilə də Azərbaycanın da daxil olduğu Şərq tərəfdaşlığı ölkələrinə münasibətdə Aİ-nın siyasətində hansı istiqamətlərin müəyyən edilməsi Azərbaycan üçün mühüm əhəmiyyət kəsb edir.

Plenar sessiyada iştirak edən 704 nəfərdən 454 nəfərin lehinə və 148 nəfərin əleyhinə səs verməsi ilə qəbul olunmuş bu ilki Hesabatda Azərbaycanın maraqlarına cavab verən və ölkəmizin Avropa İttifaqı ilə münasibətlərinin inkişafına xidmət edən bir sıra müddəalar yer alıb. Belə ki, artıq 3-cü ildir Aİ Xarici siyasət və təhlükəsizlik məsələləri üzrə Hesabatında bütün Şərq tərəfdaşlığı ölkələrinin, o cümlədən Azərbaycanın ərazi bütövlüyünə dəstək ifadə olunur və ən başlıca məqam ondan ibarətdir ki, budəfəki sənəddə ərazi bütövlüyü məsələsi "beynəlxalq səviyyədə tanınmış sərhədlər çərçivəsində" ifadəsi ilə birgə təqdim olunur ki, bu da məhz Azərbaycanın mövqeyi ilə tamamilə üst-üstə düşür.Sənəddə həmçinin ŞT-a daxil olan bütün ölkələrdə münaqişələrdən əziyyət çəkən insanlara münasibətdə də eyni yanaşma sergilənir və onlara lazımi yardımların göstərilməsinizərururiliyi vurğulanır.

Əvvəlki illərdə olduğu kimi, bu dəfə qəbul olunmuş sənəddə də ermənipərəst qüvvələrin təklif etdiyi düzəlişlər, xüsusilə "xalqların öz müqəddəratını təyinetmə hüququ" ifadəsi hesabatda yer almayıb və bu da bizim maraqlarımıza tamamilə uyğundur. Bu artıq onu göstərir ki, Şərq tərəfdaşlığı ölkələri ərazilərində baş verən münaqişələrə Aİ-nın yanaşması sabitləşib, bütün münaqişələrə eyni prizmadan, yeni beynəlxalq hüquq nopmaları prizmasından baxılması vahid yanaşma metodu kimi qəbul olunub.

Keçən il AP-ə seçkilərdən sonra Federika Mogerinin xidmət müddəti başa çatıb və Aİ-nin xarici siyasət və təhlükəsizlik məsələləri üzrə yeni Ali nümayəndəsi İspaniyanın sabiq Xarici İşlər naziri Jozef Borel seçilib. Bu sənəd cənab Jozef Borrelin öz fəaliyyətində rəhbər tutacağı vacib bir siyasi sənəddir və yeni Ali nümayəndə tərəfdaş ölkələrə dair siyasətini müəyyənləşdirərkən mütləq qaydada bu sənədə istinad edəcək. Bu sənəd Avropa Komissiyasının fəaliyyəti üçün doktrinal əsas təşkil edir və Aİ-nın Şərq tərəfdaşlığı ölkələri ilə münasibətlərinin tənzimlənməsində, bir növ, Yol Xəritəsi rolunu oynayır. Bu baxımdan, qəbul olunmuş sənəd Avropa Komissiyasının mövcud münaqişələrə münasibətdə bu hesabatda əks olunmuş mövqedən fərqli bir yanaşma ortaya qoya bilməsini kifayət qədər məhdudlaşdırır.

Aİ və Azərbaycan arasında hazırlanan strateji tərəfdaşlıq müqaviləsinin siyasi münasibətlər fəslində də Aİ tərəfindən Azərbaycanın ərazi bütövlüyünün dəstəklənməsi təsbit edilir. Bu gün qəbul olunmuş hesabatda öz əksini tapmış müddəalar Aİ və Azərbaycan Respublikası arasında hazırlanan Strateji Tərəfdaşlıq Müqaviləsinin gələcəkdə AP-də müzakirəsi zamanıda əsas rolunu oynayacaq. Bu baxımdan da bu gün böyük səs çoxluğu ilə qəbul olunmuş Hesabatın ölkəmiz üçün siyasi əhəmiyyəti olduqca böyükdür. Bu kontekstdə yeni əməkdaşlıq müqaviləsinin imzalanmasının gecikdirildiyini iddia edən və bunu hakimiyyət əleyhinə istifadə etmək üçün qərəzli şəkildə şərh etməyə çalışan müxalif qüvvələr də anlamalıdır ki, Azərbaycan hökuməti öz xarici siyasətini müəyyənləşdirərkən yalnız ölkəmizin milli maraqlarından çıxış edir. Avropa İttifaqının özü ölkəmizə qarşı siyasətində ikili standartlardan uzaqlaşmayınca bizim Aİ ilə əməkdaşlığımızın dərinləşdirilməsində heç bir fayda yoxdur. Bu kimi sənədlərin qəbul olunması isə Aİ-nı gec-tez bütün Şərq Tərəfdaşlığı ölkələrindəki münaqişələrə eyni mövqedən yanaşılmasının vacibliyinə inandırmalıdır.

# 9 fevral parlament seçkilərinin ölkəyə gətirəcəyi yeniliklər barədə beynəlxalq analitik mülahizələr...

**Gələn ay keçiriləcək parlament seçkilərinə beynəlxalq miqyasda da yüksək marağın olması aydın müşahidə edilir. Xarici ekspertlərin də verdiyi açıqlamalardan bunu qabarıq şəkildə görmək mümkündür.**

Məsələn, Ukrayna Analitika Mərkəzinin rəhbəri, ekspert Aleksandr Oxrimenko vurğulayır ki, fevralın 9-da Azərbaycanda keçiriləcək parlament seçkiləri ölkədə demokratik təsisatların daha da inkişafında yeni mərhələ olacaq.

Onun sözlərinə görə, qeydə alınan namizədlərin çoxluğu, o cümlədən müxalifəti təmsil edən namizədlərin kifayət qədər olması cəmiyyətdə parlament seçkilərinə marağın yüksək olduğunun göstəricisidir. Eyni zamanda, Azərbaycanda demokratik və şəffaf seçki mühitinin yaradıldığının sübutudur: "İstər müxalifət, istər iqtidar, istərsə də bitərəf namizədlər olsun, onlar Azərbaycanda yaradılan demokratik seçki mühitindən bəhrələnərək mübarizə aparmalıdırlar". Rusiya Dövlət Dumasının beynəlxalq məsələlər komitəsinin sədri Leonid Slutski isə bildirir ki, növbədənkənar parlament seçkilərini müşahidə etmək üçün Rusiyadan olan böyük nümayəndə heyəti Azərbaycana səfər edəcək. Onun sözlərinə görə, nümayəndə heyətinə Rusiya Federasiya Şurasının üzvləri və Dövlət Dumasının deputatları daxildir:"Bundan başqa, Rusiya daxil olduğu bir sıra beynəlxalq strukturların, o cümlədən Avropa Şurası Parlament Assambleyasının və digər təşkilatların tərkibində də seçkiləri müşahidə edəcək. Mən dəfələrlə Azərbaycanda həm prezident, həm də Milli Məclisə keçirilən seçkiləri müşahidə etmişəm. Əminəm ki, bu seçkilər də ədalətli keçiriləcək".

MDB müşahidə missiyasının qərargah rəhbəri Yevgeni Kozyak da vurğulayır ki, Müstəqil Dövlətlər Birliyi Azərbaycanda fevralın 9-da keçiriləcək parlament seçkilərinə müşahidə missiyası göndərəcək. O bildirib ki, Azərbaycanda seçki prosesini MDB-nin 250-dən çox müşahidəçisi izləyəcək. Uzunmüddətli müşahidə missiyası yanvarın 18-də Azərbaycana gələcək və fevralın 10-dək fəaliyyətdə olacaq. Qısamüddətli missiya isə səsvermədən bir gün əvvəl gələcək. Rusiyalı politoloq Sergey Markov da qeyd edir ki, dünyanın müxtəlif ölkələrinin təmsil olunduğu "Vətəndaş dialoqu" missiyasının nümayəndələri Azərbaycanda parlament seçkilərini müşahidə edəcək. O bildirib ki, özünün də təmsil olunduğu "Vətəndaş dialoqu" missiyası dünyanın müxtəlif ölkələrində keçirilən seçkilərdə müşahidəçi qismində iştirak edir. Bu missiyanın tərkibində Almaniya, Fransa, İtaliya, Avstriya, Polşa kimi ölkələrin nümayəndələri təmsil olunur. Eyni zamanda, rusiyalı müşahidəçilərdən ibarət nümayəndə heyətinin də Azərbaycana səfərinin nəzərdə tutulduğunu qeyd edən S.Markov deyib ki, bu nümayəndə heyəti Dövlət Dumasının deputatları, Federasiya Şurasının, İctimai Palatanın üzvləri və nüfuzlu ekspertlərdən ibarətdir: "Azərbaycan parlamentinin tərkibində ciddi dəyişikliyin olacağına, daha fəal insanların seçiləcəyinə inanıram. Ümid edirəm ki, birlikdə işlədiyimiz, o cümlədən AŞPA-dakı dostlarımızı yeni çağırış Məclisdə görə biləcəyik".

Amerikalı politoloq Piter Teys isə "Seçki-2020" Müstəqil Media Mərkəzinə açıqlamasında bildirib ki, parlament seçkiləri Azərbaycanda demokratik təsisatların daha da möhkəmlənməsinə töhfə verəcək. Azərbaycanda seçki sisteminin çox yaxşı təşkil edildiyini qeyd edən Piter Teys vurğulayıb: "Ölkədə mövcud tolerant mühit, bütün xalqların və dinlərin nümayəndələri üçün yaradılan bərabər şərait hər zaman nümunə kimi qiymətləndirilib. Dövlətin bu cür tolerant cəmiyyət üçün formalaşdırdığı demokratik seçki mühiti, institusional hesabatlılıq və təkmil qanunvericilik bazası seçkilərin şəffaf və ədalətli şəraitdə keçməsinə zəmin yaradır. Təcrübə göstərir ki, keçirilən hər yeni seçki demokratik standartların möhkəmlənməsinə xidmət edir. Bundan əvvəlki seçkilər seçici fəallığı ilə yadda qalıb. Ümid edirəm ki, fevralın 9-da keçiriləcək seçkilərdə də xalq şəffaf, demokratik mühitin yaratdığı imkanlardan səmərəli istifadə edəcək və bu seçkilər Azərbaycanın istər bölgədə, istərsə də dünyada nüfuzunu daha da möhkəmləndirəcək".



İsrailli siyasi texnoloq Yuriy Boçarovun da məsələyə yanaşması olduqca maraqlıdır. O qeyd edir ki, Prezident İlham Əliyev tərəfindən ölkədə ciddi islahatlar aparılır:"Qanunverici orqan olaraq parlamentin də bu islahatlarla ayaqlaşmaq istəyi təbiidir. Struktur və kadr islahatları, mərkəzi və yerli icra hakimiyyəti orqanlarında aparılan gəncləşmə siyasəti insanlar tərəfindən hər zaman müsbət qiymətləndirilir". Siyasi texnoloq qeyd edib ki, deputatlığa namizədlərdən daxil olmuş müraciətlərin təhlili ölkədə demokratik seçki mühitinin olduğundan xəbər verir: "Hər bir deputat mandatı uğrunda mübarizədə namizədlərin sayının çoxluğu ölkədə şəffaf seçki mühitini və parlamentin yüksək nüfuza malik olduğunu göstərir. Bu həm də o deməkdir ki, insanlar qanunun aliliyinə və layiqli namizədlərin ölkənin qanunverici orqanına seçiləcəyinə inanır".

Boçarov bildirib ki, Azərbaycanın kifayət qədər təkmilləşmiş seçki sisteminin olması, habelə insanların seçkilərdə iştirak etmək istəyi təkcə ölkə üçün deyil, bütün region üçün nümunədir. Azərbaycanda təkmil seçki sistemi, seçicilərin siyahısının onlayn yayılması, seçki məntəqələrində videokameraların quraşdırılması şəffaflıq göstəricisidir. Digər əcnəbi ekspertlərin açıqlamaları da seçkilər prosesinə yüksək diqqətin olduğunu deməyə əsas verir. Bu vəziyyət, öz növbəsində, seçkilərdən kənarda qalan radikal müxalifətin də növbəti iflası deməkdir.

***Tahir TAĞIYEV***

# Misir polisindən azad türk mediası üzərinə misilsiz repressiya yürüşü - "Anadolu" agentliyinin "suçu nə"...

**Məlum olduğu kimi, Misir polisi yanvarın 14-də axşam saatlarında "Anadolu" agentliyinin (AA) Qahirədəki ofisində reyd keçirib. Reyd zamanı agentliyin dörd əməkdaşı, o cümlədən, Türkiyə vətəndaşı saxlanıb. Qeyd edilir ki, saxlananlar naməlum istiqamətə aparılıb.**



Polis əməkdaşları yerli vaxtla təxminən saat 18:00-da agentliyin Qahirədəki ofisinə daxil olublar. Hüquq-mühafizə orqanlarının əməkdaşları ofisdə müşahidə kameralarının fəaliyyətini dayandırıb, internet şəbəkəsini kəsib. Ofisdə axtarışlar yanvarın 15-i səhərə qədər davam edib. Agentliyin əməkdaşlarının şəxsiyyət vəsiqələri, mobil telefonları və kompyuterləri götürülüb, agentliyin mərkəzi ofisi və əməkdaşların ailə üzvləri ilə əlaqə saxlamaq cəhdlərinin qarşısı alınıb. Bununla belə, polis agentliyin Qahirə ofisinin vəkilinə hər hansı informasiya verməkdən imtina edib. Vəkil ofisdən çıxarılıb, axtarış davam etdirilib.Agentliyin dörd əməkdaşı, o cümlədən, Türkiyənin bir vətəndaşı ofisdə səhərə qədər saxlanıb.

Türkiyənin müvafiq diplomatik qurumları vəziyyəti izləyirlər. Agentliyin vəkilləri və Türkiyənin Qahirədəki Səfirliyi Misir hakimiyyətindən agentliyin Qahirə ofisinin əməkdaşlarının olduğu yer haqqında informasiya verməyi tələb edib.

## *Məhəmməd Əsədullazadə: "İki ölkə arasında baş verən bu gərginlik fonunda, mətbuata qarşı bu cür siyasət dözülməzdir"*

Misirin Türkiyə ilə münasibətlərinin gərgin olması bəllidir. Misirin sabiq prezidenti Məhəmməd Mursinin 2013-cü ilin iyununda devrilməsindən sonra iki ölkənin əlaqələri pisləşib. Rəsmi Ankara "Müsəlman Qardaşlar"ın önəmli şəxslərini himayə edərək qoruyacağını bildirməsi ilə Misirdə çevrilişçilər Türkiyənin Qahirədəki səfirini geri göndərib, bununla da ikitərəfli əlaqələr daha da kəskinləşib. Sonra münasibətlər nisbətən düzəlsə də, tərəflər arasında gərginlik qalmaqdadır. Ancaq buna baxmayaraq, Misir hakimiyyətinin Türkiyəni təmsil edən media orqanına qarşı bu cür repressiv davranışı heç bir məntiqə sığmır. Görünən odur ki, Misir polisi azad türk mediası üzərinə misilsiz repressiya yürüşü edir. Hansı ki, medianı iki ölkə arasında olan siyasi münasibətlərə görə sıxışdırmaq heç bir məntiqə uyğun deyil.

*"Hazırda Aralıq dənizinin şərq sahilində Qahirə Ankaraya qarşı düşmənçilik siyasəti aparır"*

Sözügedən məsələ ilə bağlı fikirlərini "Bakı-Xəbər"lə bölüşən politoloq Məhəmməd Əsədullazadənin sözlərinə görə, Misirlə Türkiyə arasında Yaxın Şərqdə baş verən proseslərlə bağlı ciddi problemlər yaşanır: "Xüsusilə Misirdə general Sisi hakimiyyətə gəldikdən sonra Ankara ilə münasibətləri gərgin olub. Çünki Sisi hərbi çevriliş edərək Ankaranın dəstək verdiyi Mursi hakimiyyətini devirib. Bundan əlavə, Sisinin Türkiyə əleyhinə regionda fəaliyyəti iki ölkə arasında böhranı dərinləşdirib. Hazırda Aralıq dənizinin şərq sahilində Qahirə Ankaraya qarşı düşmənçilik siyasəti aparır. Həmçinin, Liviyada bu istiqamətdə general Haftarı dəstəkləyir. Bu gərginlik fonunda, Türkiyənin orada fəaliyyət göstərən "Anadolu" agentliyinə qarşı təzyiqlərin edilməsi mətbauta qarşı bir savaşdır.

Hesab edirəm ki, antidemokratik bir sistem olan Sisinin bu siyasətinin qarşısı mütləq alınmalıdır. Ölkədə demokratik bir sistemə qarşı hərbi çevriliş həyata keçirən bir hakimiyyətin Türkiyə mətbuatına qarşı repressiya həyata keçirməsi gözləniləndir. İki ölkə arasında baş verən bu gərginlik fonunda, mətbuata qarşı bu cür siyasət dözülməzdir. Ən başlıcası, bu, beynəlxalq hüquq qaydalarına ziddir. Ankaraya qarşı Sisinin bu siyasəti uğursuzluğa məhkumdur və regional güc olaraq Türkiyənin oyunçuluğunu qəbul edəcək. Misir Qərbdən asılı bir ölkədir və müstəqil siyasəti yoxdur. Ona görə də Türkiyəyə qarşı bu siyasət təsadüfi deyil".

***Vidadi ORDAHALLI***

# Politoloq Dmitri Solonnikov Avroparlamentin qəbul etdiyi qətnaməni Azərbaycanın ciddi diplomatik qələbəsi adlandırdı



**Avropa Parlamentinin Azərbaycanın ərazi bütövlüyünü dəstəkləyən və avropalı məmurları Avropa İttifaqının xarici siyasətinə əməl etməsinə məcbur edən "Avropa İttifaqının xarici siyasət və təhlükəsizlik sahəsində ümumi siyasəti barədə" qətnaməni qəbul etməsi Azərbaycanın ciddi diplomatik qələbəsidir.**

Bunu "Trend"ə rusiyalı politoloq Dmitri Solonnikov deyib. Onun sözlərinə görə, bu sənəd bəzi müddəalara əsaslanaraq Dağlıq Qarabağ münaqişəsi ilə bağlı bəzi məsələləri müzakirəyə çıxarmağa və daha konkret sənədlər qəbul etməyə imkan verəcək: "Azərbaycan tərəfinin öz mövqeyinin təbliğ olunmasında daha çox əsası olacaq. Bu həm də Dağlıq Qarabağ münaqişəsindən əziyyət çəkmiş məcburi köçkünlərin problemlərinə şamil oluna bilər".

Avropa Parlamentinin ayr-ayrı deputatlarının mövqeyinə gəldikdə isə, politoloq bildirib ki, onların adətən bu və ya digər məsələlərin hüquqi parametrlərilə bağlı öz təsəvvürləri olur, ona görə də bu məsələdə illüziyaya qapılmaq lazım deyil: "Bu qətnamənin qəbul olunmasına səs vermiş deputatlar, çətin ki, özlərini onun çərçivələri daxilində məhdudlaşdırılmış hiss etsinlər. Bu həm alternativ məlumatların yayılmasına, həm də Ermənistan tərəfinin dəvətilə Azərbaycanın işğal olunmuş ərazilərinə səfərlərə aiddir".

**D.Solonnikov sonda əlavə edib ki, qəbul olunmuş "Avropa İttifaqının xarici siyasət və təhlükəsizlik sahəsində ümumi siyasəti barədə" qətnamə Azərbaycanın xarici siyasi uğurudur, amma bu, yekun qələbə deyil.**

# Türkiyə əhalisinin 64 faizi ABŞ-ı düşmən saydı



**Türkiyə əhalisinin 56,5 faizi Azərbaycanı ölkənin ən etibarlı dostu hesab edir.**

"Trend"in məlumatına görə, bu barədə Kadir Has Universitetinin 2019-cu ilin yekunlarına görə keçirdiyi sorğunun nəticələrində deyilir. Bununla yanaşı, rəyi soruşulanların 43.5 faizi Özbəkistanı da Türkiyə üçün dost və müttəfiq ölkə hesab edir.

Sorğuya əsasən, rəyi soruşulanların 64,5 faizi ABŞ-ı Türkiyə üçün ən böyük təhlükə kimi görür.

Bundan başqa, respondentlərin 45 faizi Türkiyəni İslam ölkəsi, 17,6 faizi dünyəvi və Avropa ölkəsi hesab edir.

Əhalinin 51,1 faizi düşünür ki, Ankara Avropa İttifaqına qoşulmaq üçün danışıqlar aparmalıdır.

Qeyd edək ki, 2018-ci ilin yekunlarına görə də Azərbaycan Türkiyədə ən etibarlı dost ölkə hesab edilib.

**ABŞ və İran arasında davam edən gərginliyin savaş mərhələsinə keçib-keçməyəcəyi indi ekspertlər arasında ən çox müzakirə edilən əsas mövzulardan birinə çevrilib. Hesab edilir ki, İraqda ABŞ mövqelərinə zərbə endirilməsinə davam ediləcəyi təqdirdə, belə bir savaşın başlaması mümkündür.**

# İranın ABŞ-a hər yerdə və hər cür zərbə vurmaq planının tam detalları hələ açıqlanmır...

İranın Azərbaycandakı keçmiş səfiri Əfşar Süleymani də hadisələrin məhz bu səpkidə inkiaşfını istsina etmir. Amma iranlı diplomat ABŞ-ın ehtimal olunan müharibədə az zərər görəcəyini bildirib: "ABŞ hərbi əməliyyatlardan az zərər görəcək. ABŞ-ın özü silah sata bilər, amma bazaları zərər görəcək. Həm də müharibəyə başlamaq istəməzdilər".

Rusiyalı hərbi ekspert Aleksandr Xrolenko da savaşı istisna etməyənlərdəndir. O xatırladır ki, İraqda bir həftə ərzində ABŞ-ın dörd hərbi bazasına güclü zərbə endirilib və bunun yalnız bir izahı var - bölgədəki Amerika koalisiyasını buradan qətiyyətlə çıxmağa çağırırlar: "ABŞ-ın İraqdakı "Ət-Taci" hərbi bazasının ərazisinə yanvarın 14-də yeni raket zərbəsi endirilib. Bu informasiyanı Amerika koalisiyasının qərargahının nümayəndəsi, polkovnik Maykl Keqqins təsdiq edib. Amerikanın şübhələri yanvarın 3-də ABŞ prezidenti Donald Trampın əmri ilə Bağdad aeroportunda iranlı general Qasım Süleymani ilə birlikdə öldürülmüş Əbu Mehdi əl-Mühəndisin rəhbəri olduğu İraq şiə qruplaşmasının üzərinə yönəlib. Bu vəziyyətdə İraqdakı konkret icraçının əhəmiyyəti yoxdur, biz İranın "Şəhid Süleymani" hərbi əməliyyatı tendensiyasını və inkişafını müşahidə edirik. Bir qədər əvvəl İslam İnqilabı Keşikçiləri Korpusunun (SEPAH) aerokosmik qüvvələrinin komandanı, general Əmir Əli Hacızadə regiondakı Amerika hərbi bazalarına "silsilə hücumlar"ın başlandığını bəyan edib və deyib: "Süleymaninin qətlinin əsl qisası ABŞ-ın Yaxın Şərq ərazisindən qovulması olacaq". Yanvarın 8-dən 14-dək İraqın müxtəlif əyalətlərində yerləşən "Ayn əl-Əsəd", "Ərbil" və "Balad" Amerika hərbi bazaları SEPAH və şiə hərbi birləşmələrinin zərbələrinə məruz qalıb. Vaşinqton ABŞ qoşunlarının yerləşdiyi Əfqanıstan-İraq-Suriya "qaynar dəhlizində" vəziyyətin nə qədər çətin və təhlükəli olduğunu anlayır. Buna görə də, hərbi obyektlərə edilən dörd kütləvi hücum və Pentaqonun nüfuzu faktiki olaraq cavabsız qalıb. Vaşinqtonun süni şəkildə yaratdığı bu böhranlı vəziyyətdə amerikalılar diplomatik şəkildə manevr etməyə çalışırlar - Qətərin Əmiri Tamim bin Hamad əl-Taninin Tehrana elan olunmamış səfəri bunun göstəricisidir".




Ekspert vurğulayır ki, İran prezidenti Həsən Ruhani parlamentin əvvəllər qəbul etdiyi Pentaqon və onunla əlaqəsi olan strukturları terror təşkilatı kimi tanıyan qanun layihəsini təsdiqlədi: "Bəlkə də bu, Vaşinqtona hərbi-siyasi xəbərdarlıqdır. Ruhaninin imzaladığı və İranın çox sayda deputatı tərəfindən qəbul edilmiş qanun İran silahlı qüvvələrinə ABŞ-ın ordusuna, Hərbi Hava Qüvvələrinə və Hərbi Dəniz Qüvvələrinə bölgədə və planetin hər yerində əlavə qanuni əsaslar olmadan hücum etməyə imkan verir. Əslində heç kim Amerika koalisiyasına qarşı "Şəhid Süleymani" hərbi əməliyyatının təfərrüatlarını açıqlamır. Prinsipial fikir ayrılıqlarına görə ABŞ və İran arasında tammiqyaslı hərbi qarşıdurma ehtimalı yüksək olaraq qalır. Hələ "yerdəki" və Fars körfəzindəki qarşılıqlı blokada variantları haqqında danışmırıq.

Digər tərəfdən, İraq parlamenti yanvarın 5-də keçirilən təcili iclasında hökumətdən İraqda xarici qüvvələrin hərbi mövcudluğuna son qoymağı tələb edən qətnamə qəbul etdi. Donald Tramp buna cavab olaraq görünməmiş sanksiyalar vəd etdi. Bağdad Amerika qoşunlarının çıxarılması ilə bağlı qəti qərar qəbul edərsə, ABŞ öz banklarındakı İraqa məxsus on milyardlarla dolları dondurmaq və hərbi yardımı azaltmaqla hədələyir. Tarixin tərəzisi tərpənir. Pentaqon və koalisiya narahat bölgəni tərk etməyə mənəvi olaraq hazırdır, çünki düşmənin möhkəm və yüksək texnologiyalı olduğu ortaya çıxdı. İran inkişaf etmiş kompleks zərbə silahına, o cümlədən 1350 kilometrlik uzaq məsafəli qanadlı "Xoveyze" raketinə malikdir və Amerika koalisiyasının İraqda etibarlı hava hücumundan müdafiə sistemi yoxdur. 8 yanvar tarixində ilk raket hücumları ABŞ hərbi bazaları və koalisiya qoşunlarının müdafiəsizliyini göstərdi. Pentaqona isə yalnız düşmən düşərgəsindəki heç bir təhlükəsizliyə zəmanət verməyən texniki kəşfiyyat avadanlıqlarına və ya pullu informatorlara ümid bağlamaq qalır".

Ekspert onu da bildirir ki, Yaxın Şərq xaricində ABŞ və İran qüvvələrinin imkanları müqayisəyəgəlməzdir. Lakin bu bölgədə Pentaqonun müəyyən üstünlüyü İran qoşunlarının öz ərazilərində təmərküzləşməsi ilə nəticələnir: "Global Firepower"in hərbi gücə dair qlobal reytinqində Qərb analitikləri İrana Pakistan, İsrail və Şimali Koreyadan yüksək olan 14-cü yeri verir. Tehrana açıq təcavüz, regional tərəfdaşlar da daxil olmaqla, bütün Amerika koalisiyasını ciddi nəticələri və itkiləri ilə təhdid edir. Yeri gəlmişkən, İranın da müttəfiqləri var. General Süleymaninin vəfatından sonra İranda İraq şiə "Xalq Səfərbərlik Qüvvələri" komandirlərinin koordinasiya iclası keçirilib. Şiələrin mütəşəkkilliyinin və hərbi potensialının düzgün qiymətləndirməməsi təhlükəlidir. Bu mənada, İraqın "Antiamerika" mövqeli real suverenlik istəyi Rusiyadan "S-400 Triumf" zenit-raket sistemlərinin alınmasını zəruri edir.

**Rusiya ilə əməkdaşlıq şəraitində Türkiyənin müdafiə quruculuğunun möhtəşəm nümunəsi ABŞ-ın tərəfdaşlarına təsirinin həqiqi sərhədlərini açıqladı. Əvəz olunmayan silah sistemləri, tərəfdaşlar və müttəfiqlər yoxdur. Bu gün Yaxın Şərqdə geosiyasi dəyərlərin yenidən genişmiqyaslı qiymətləndirilməsi aparılır". Məhz bu durumda digər ekspertlər də savaşı istisna etmir.**

***Tahir TAĞIYEV***

# Rusiyada tam hökumət istefasının sirləri açılır - dövlət quruluşu dəyişir, Putin yeni dövrün də lideri olacaq...

**Rusiyada Baş nazir Medvedevin rəhbərlik etdiyi hökumətin gözlənilmədən istefası və prezident Vladimir Putinin elan etdiyi konstitusiya dəyişiklikləri ölkədə yeni bir dövrün başlandığına işarə edir. Rus mütəxəssislərinin fikrincə, necə bir dövrün başladığı isə hələlik məlum deyil.**



Baki-xeber.com xəbər verir ki, hökumətin istefasından əvvəl Putin parlamentdəki illik çıxışında siyasi sistemə əhəmiyyətli təsir göstərəcək bir sıra konstitusiya dəyişikliklərini açıqlayıb.

Bu çıxışdan qısa müddət sonra isə Putinin Rusiya rəhbərliyində son 20 ildə ən yaxın adamlarından olan Dmitri Medvedev rəhbərlik etdiyi hökumətin tam tərkibdə istefaya getdiyini açıqlayıb. Medvedev bu qərarını Putinin hədəflədiyi islahatların yolunu açmaq üçün verdiyini deyib. "Vladimir Vladimiroviç Konstitusiyaya bir sıra fundamental dəyişiklik edib. Bu, nəinki Konstitusiyanın bir sıra maddələrində, ümumilikdə hakimiyyət balansında əhəmiyyətli dəyişikliklərdir. İcra hakimiyyəti, qanunverici hakimiyyət, məhkəmə hakimiyyəti. Bu kontekstdə biz birmənalı surətdə, hökumət olaraq, ölkə başçısına bunun üçün lazım olan bütün qərarları qəbul etmək imkanı verməliyik. Və bu şəraitdə, hesab edirəm ki, Konstitusiyanın 117-ci maddəsinə əsasən hazırkı tərkibdə hökumətin istefa verməsi düzgün olardı", - deyə o bildirib.

Prezident Vladimir Putin, "hər şeyin alınmamasına baxmayaraq", hökumət üzvlərinə əməkdaşlıqlarına görə təşəkkür edib. Rusiya lideri, həmçinin, yaxın vaxtlarda Nazirlər Kabinetinin hər bir üzvü ilə görüşəcəyini də deyib. O, hələ ki, onlardan vəzifə borclarını tam şəkildə yerinə yetirmələrini xahiş edib.

Bundan əlavə, prezident Təhlükəsizlik Şurası sədrinin müavini vəzifəsini təsis etmək və bunu Medvedevə təklif etmək niyyətində olduğunu dilə gətirib. Putinin fikrincə, bu vəzifədə Nazirlər Kabinetinin hazırkı rəhbəri müdafiə qabiliyyəti və təhlükəsizlik mövzuları ilə məşğul ola bilər.

Medvedevin rəhbərlik etdiyi hökumətin istefası isə Prezident Putinin Federal Məclisə müraciətindən sonra yaşanıb. Putin müraciətində bir sıra vacib bəyanatlar verib. Məsələn, Putin prezidentlik müddətlərinin sayının məhdudlaşdırılmasını prinsipial məsələ hesab etmədiyini, amma bununla razı olduğunu deyib. "Bu məsələnin prinsipial olduğunu düşünmürəm, amma bununla razıyam", - Rusiya prezidenti bildirib.

O, həmçinin, prezident səlahiyyətlərinin bir hissəsini parlamentlə bölüşmək təklifini verib.

Putin Dövlət Dumasını Rusiya Federasiyası hökumətinin təsdiqlənməsində, Federasiya Şurasını isə güc nazirliklərinin rəhbərlərinin, habelə regional prokurorların təyin olunmasında iştirak etməyə dəvət edib.

Medvedevin yerinə isə haqqında ciddi şikayətlər edilən vergi sistemini çox təsirli bir quruma çevirən Federal Vergi Xidmətinin rəhbəri Mixail Mişustin gətirilib. Putin Medvedevə isə yeni təsis olunan Rusiya Təhlükəsizlik Şurası sədrinin müavini vəzifəsini təklif edib. O, həmçinin, hakim "Yedinaya Rossiya" Partiyasının sədri kimi də fəaliyyətini davam etdirəcək.

Təhlilçilər deyir ki, hökumətin istefası və açıqlanan konstitusiya dəyişikliyi təklifləri, səlahiyyət müddəti 2024-cü ildə bitəcək və konstitusiyaya görə yenidən seçilmək imkanı məhdud olan Putinin liderliyini qorumasını təmin edəcək bir sistemin ilk addımlardır.

BBC-nin rus xidmətindən Sergey Qoryaşko Putinin hakimiyyətdə qalmaq istədiyini və əsas məsələnin də bunun necə baş verəcəyi ilə bağlı olduğunu deyib.

Müzakirə olunan ssenarilərdən biri Medvedevin də ikinci adam təyin olunduğu Təhlükəsizlik Şurasının vəzifə və səlahiyyətlərinin artırılaraq, rəhbərinin prezidentdən daha güclü olacağı bir sistemə keçiləcəyi ilə bağlıdır.

Təhlükəsizlik Şurası hazırda məşvərət şurası kimi fəaliyyət göstərir və 85 regional qubernatordan və siyasi partiya rəhbərləri kimi bir sıra vəzifəli şəxslərdən ibarətdir. Çox sayda üzvü olan Şuranın iclasları Kremldəki ən böyük salonlardan birində keçirilir. Putinin təklif etdiyi konstitusiya dəyişiklikləri arasında Təhlükəsizlik Şurasının səlahiyyətlərinin artırılması və rəsmi bir dövlət quruluşuna çevrilməsi də daxildir.

Karnegi Fondunun Moskva Mərkəzinin analitiki Aleksandr Baunov Putinin Təhlükəsizlik Şurası ilə bağlı müzakirələr açmasının diqqətçəkən olduğunu deyib. Onun fikrincə, Təhlükəsizlik Şurasının quruluşu ilə bağlı müzakirələrin açılmasına səbəb ola bilər ki, Putin prezidentdən də üstün və hakimiyyəti əlində saxlayan bir qurum yaratmaq istəyir. Analitiklərin fikrincə, Medvedev kimi, Putinin 20 ildir ən yaxın adamı olan birinin şurada ikinci posta gətirilməsi bu ssenarini gücləndirən amillərdən biridir.

Qeyd edək ki, Putin daha öncəki çıxışında, Təhlükəsizlik Şurasının tərkibi ilə yanaşı, konstitusiyaya dəyişikliklər təklifi ilə də gündəmə gəldi. Putin konstitusiya dəyişikliklərinin referenduma çıxarılmasını da təklif edib ki bu baş verərsə, 1993-cü ildən bəri ölkədə keçirilən ilk referendum olacaq.

**Prezidentlik sisteminin davam etdirilməsinin tərəfdarı olduğunu bildirən Putinin başqa bir təklifi, baş nazirin seçilməsi üçün parlamentə daha geniş səlahiyyətlər verməsi oldu. Rusiya lideri konstitusiyada prezident seçkiləri ilə bağlı maddədən "ardıcıl" ifadəsini çıxararaq və dövlət başçılarına ümumilikdə maksimum iki müddət səlahiyyət verilməsini də təklif edib.**

***Tahir TAĞIYEV***

**Hərbi müstəvidə Azərbaycanın istənilən an işğalçı Ermənistan ordusunu darmadağın edə biləcəyi hamı tərəfindən qəbul edilən həqiqətdir. Bu mənada, erməni tərəfinin hansısa yeni silah aldıqda öyünməyə başlamasını düşmən ölkənin özündə belə istehza ilə qarşılayanların sayı kifayət qədərdir.**

# Azərbaycan hərbisini üstələmək üçün Paşinyanın aldığı son qırıcı və raketlər rişxənd obyekti oldu...

Qeyd olunan fonda Ermənistanın Rusiyadan aldığı Su-30SM qırıcı təyyarəsi və "Tor-M2KM" zenit-raket kompleksləri hesabına guya öz ordusunun silahlanmasını gücləndirməsi də məsxərə obyektinə çevrilib.

Əvvəla diqqət buna yönəlir ki, həmin qırıcı təyyarənin alınması Ermənistana heç bir üstünlük qazandırmır. Çünki Azərbaycanın buna qarşı effektiv mübarizə sistemi mövcuddur. Ekspertlər də bildirir ki, bu gün Azərbaycan müasir dərin eşelonlaşdırılmış hava hücumundan müdafiə sistemlərinə malikdir. Xüsusən də ötən il İspaniyadan alınan və "İndra" şirkəti tərəfindən istehsal olunan yeni hava hücumundan müdafiə sisitemi ölkəmizin bu sahədə üstünlüyünü daha da artırıb. Bu sistem düşmənin bütün mövcud hava hücumu vasitələrinin aşkar edilməsinə imkan verir. Hava düşməninin təhdidlərini aradan qaldırmaq məqsədilə Azərbaycanın hava hücumundan müdafiə qoşunlarında yeni rəqəmsal element bazasına malik, özünütuşlayan aktiv başlıqlı raketlər, eləcə də təyyarə, helikopter, PUA, qanadlı və ballistik raketləri məhv etmək üçün müasir alqoritmlərlə təchiz edilmiş "Favorit", "Barak-8" və digər uzaqmənzilli zenit-raket sistemləri döyüş növbəsindədir. Ordumuz düşməni yalnız havada deyil, hətta onların daimi dislokasiya yerlərində də məhv etməyə qadirdir. Məsələn, 2019-cu ildə Azərbaycan və Türkiyə Hərbi Hava Qüvvələrinin birgə təlimləri zamanı icra edilən bir ssenariyə əsasən Türkiyə hava qüvvələrinin F-16 qırıcıları Azərbaycanın hava müdafiə sistemini aşa bilmədi və şərti olaraq məhv edildi. Su-30SM isə heç də F-16-dan üstün deyil.



Erməni politoloq Suren Sarkisyan isə bildirir ki, Su-30SM qırıcısı alınsa da, onu Ermənistanda istənilən şəkildə idarə edə bilən pilotlar hələ hazırlanmayıb. Digər tərəfdən o da bəllidir ki, cari il ərzində Azərbaycan xaricdən texnika alınmasına 1 milyard dollar vəsait ayırmağı planlaşdırır. Bu halda Bakının Su-30SM-dən dəflərlə üstün olan və beşinci nəsil döyüş təyyarəsi sayılan Su-57 alması da gündəmdədir. Elə bir müddət əvvəl də Rusiyanın "Vedomosti" nəşri yazırdı ki, Azərbaycan Rusiyadan beşinci nəsil Su-57 qırıcılarını almağa maraq göstərir. Rusiyanın müdafiə sənayesi şirkətlərindən birinin iki top-meneceri "Vedomosti"yə bildirmişdi ki, Su-57 qırıcılarının Azərbaycana satılmasına dair danışıqlar prosesinə yüksək siyasi səviyyədə yaşıl işıq yandırılıb: "Bakı və Moskvanın silah sövdələşmələrinin aviasiya hissəsi ancaq Mi-17 və Mi-35 vertolyotları ilə məhdudlaşıb, hərçənd, Azərbaycan özünün döyüş aviasiya parkının yenilənməsinə də ciddi ehtiyac duyur. Çünki döyüş aviasiyasının əsasını modernləşdirilmiş MiQ-29 sovet qırıcıları təşkil edir. Azərbaycan çoxdandır JF-17 Pakistan-Çin qırıcılarını almağa maraq göstərir və artıq Pakistandan MFI-395 "Super Mushshak" yüngül təlim-məşq təyyarələrini alıb". "Vedemosti" əlavə edirdi ki, Azərbaycanın Su-57 qırıcılarına maraq üçün dönüş nöqtəsi Ermənistanın Rusiyadan 4 Su-30SM qırıcısı alması, daha 8 təyyarə almağa hazırlaşması olub. "Silah ixracı" jurnalının baş redaktoru Andrey Frolov hesab edir ki, Azərbaycanla Su-57 qırıcılarına dair danışıqlar Bakı tərəfdən bəzi şərtlərlə müşayiət oluna bilər. İlk növbədə maliyyələşmə mexanizmi barədə şərtlərlə. Ekspert hesab edir ki, Azərbaycan ən uzağı bir eskadrilya Su-57 qırıcısı almaq istərdi. Bu təyyarələri almaq istəyi bir tərəfdən də Ermənistanın Su-30SM qırıcıları əldə etməsi ilə bağlı yaranıb:"Hesab edirik ki, Azərbaycan daha üstün təyyarə almağı lazım bilir. Digər tərəfdən, Azərbaycan Hərbi Hava Qüvvələri keyfiyyət və miqdarca müəyyən yenilənməyə ehtiyac duyur, ona görə də seçim təkcə Su-57 qırıcıları ilə bağlı deyil. Qiyməti xeyli ucuz olan Çin-Pakistan qırıcıları da diqqət mərkəzindədir".

"Valday" Beynəlxalq Diskussiya Klubunun eksperti, politoloq Fərhad İbrahimov isə bildirir ki, hər şey Azərbaycanın yeni silahları satın almaqda nə dərəcədə maraqlı olmasından asılı olacaq: "Rusiya dünya bazarında yüksək tələbatın olduğu Su-35 təyyarələrini təklif edə bilər, nəzərə alsaq ki, Azərbaycan və Rusiya arasında ticarət dövriyyəsi 2019-cu ildə 2018-ci illə müqayisədə 500 milyon dollar artıb. Bu cür artımı bu il də gözləmək olar. Sirr deyil ki, ticarət dövriyyəsinin strukturunda mühüm yeri hərbi-texniki əməkdaşlıq müqavilələri tutur.

Eyni zamanda, hərbi-texniki məsələdə Rusiya və Ermənistan arasında əməkdaşlığı müqayisə etsək, İrəvan 2018-ci ildə 200 milyon dollar məbləğində kredit sazişi əsasında silahların tədarükünü başa çatdırıb. Ermənistanın hərbi xərcləri artır, amma bu rəqəmlər o qədər də yüksək deyil, iqtisadi cəhətdən Ermənistan öz xərclərini müstəqil şəkildə qarşılaya bilmir və silahı kreditlə almağa məcburdur. Azərbaycanla bağlı vəziyyət isə kökündən fərqlənir. Ölkə maliyyə baxımından çətinlik yaşamır və iri hərbi sazişlər bağlamaq gücündədir. Bu isə Azərbaycanı ABŞ, İsrail və Avropa İttifaqı tərəfindən silah satışı üçün cəlbedici edir".

***Nahid SALAYEV***

# Maliyyə Palatasının yarıtmazlığı, Mərkəzi Bankın yeni səlahiyyətləri və Prezidentin "başlı-başına buraxa bilmərik" hökmü...

**Ölkədə aparılan islahatlar beynəlxalq miqyasda bu gün Azərbaycana daha çox diqqət ayrılması ilə müşayiət olunmaqdadır. İndi dünya miqyasında da açıq etiraf olunur ki, islahatlar Azərbaycanın inkşafını daha dinamik hala gətirərək, onun daha çox nailiyyətlər əldə etməsi ilə müşayiət olunacaq.**

Hazırda islahatların xüsusi diqqət çəkən sahələrindən biri də maliyyə sektorudur. Hesab edilir ki, ötən il ərzində bu sektorda aparılan islahatlar cari il ərzində daha mühüm nəticələr əldə olunması ilə müşayiət olunacaq. Qeyd edək ki, ötən il Maliyyə Bazarlarına Nəzarət Palatasının ləğv edilməsi maliyyə sahəsində aparılan islahatların mühüm tərkib hissələrindən sayılır. Palatanın yaradılmasında məqsəd bank sistemində sağlamlaşdırma prosesinin həyata keçirilməsi, kredit faizlərinin müəyyən dərəcədə aşağı salınması idi. Lakin Palatanın fəaliyyəti dövründə bank sistemində ciddi dəyişikliklər baş vermədi. Onun fəaliyyət göstərdiyi iki il müddətində irəliləyişlər olmadı və bank sistemi işini köhnə qaydada davam etdirdi. Ona görə də dövlət başçısı bu qurumu ləğv edib, səlahiyyətlərini Mərkəzi Banka verdi. Bundan başqa, problemli kreditlərin həlli ilə bağlı dövlət bank sektoruna ciddi maliyyə yardımı göstərdi, 600 milyon manatdan çox vəsait ayrıldı. Baş verənləri yüksək qiymətləndirən Dünya Bankının hökumətə təqdim etdiyi tövsiyələrdə bildirilir ki, Azərbaycanın maliyyə sektorunun daha dayanıqlı olması üçün qanunları və tənzimləyici mexanizmi beynəlxalq standartlara və qabaqcıl təcrübəyə uyğunlaşdıracaq islahatlar daha da sürətləndirilməlidir:"Nəticədə ölkənin maliyyə sektoruna ictimaiyyətin və sərmayəçilərin etimadı artar, yerli və beynəlxalq sərmayəçilər üçün beynəlxalq aləmdə məqbul hesab edilən qaydalara əsaslanan bərabər şərait yaradıla bilər". Ölkədə maliyyə sistemini daha təhlükəsiz və dayanıqlı hala gətirmək, böhran vəziyyətlərinə qarşı səmərəli tədbirlər görmək üçün makroprudensial nəzarətin əhəmiyyətini, Maliyyə Sabitliyi Şurasının potensialını artırmağın məqsədəuyğun olduğu göstərilir. Həmçinin Dünya Bankı maliyyə sektorunda mütəmadi olaraq stres-testlər keçirməyi, başlıca həssas nöqtələr məsələsini həll etməyi təklif edilir.

Xatırladaq ki, Mərkəzi Banka ötən ilin noyabr ayında bütün maliyyə sektorunu tənzimləmək səlahiyyəti verilib. 2020-ci ildə və orta müddət ərzində pul siyasətinin və maliyyə sabitləşməsinin əsas istiqamətlərinə dair bəyanatında baş bank maliyyə sektorundakı potensial risqləri üzə çıxartmaq üçün hərtərəfli monitorinqlər keçiriləcəyini açıqlayıb. Belə ki, stres-testlər əsasında müxtəlif iqtisadi şoklara qarşı maliyyə sektorunun vəziyyətini önləyici qaydada simulyasiya edəcək və zəruri hallarda sektora müvafiq müdaxilələr həyata keçiriləcək. Bank sisteminin sağlamlaşdırılması üçün sistem əhəmiyyətli maliyyə institutlarında risqlərin akkumulyasiyasının qarşısının alınması mühüm vəzifələrdən biri hesab ediləcək. Həmçinin bank sektorunda problemli kreditlərin həcmini daha da azaltmaq və kredit təşkilatları tərəfindən yeni kreditlər verilərkən təkmil risq idarəetməsi prinsiplərinin rəhb?r tutulması təşviq ediləcək.

Bank sisteminin likvidlik səviyyəsinin məqbul həddə qorunması və onun səmərəli idarə mexanizmlərinin yaradılması da mühüm vəzifələr arasındadır. 2020-ci ildə bank nəzarət sistemini təkmilləşdirmək, risqlərin qiymətləndirilməsi əsasında pilot nəzarət qaydaları tətbiq etmək də qarşıya məqsəd qoyulur. Həmçinin banklarda stres-testləşmənin əhəmiyyətini artırmaq, korporativ idarəçiliyi təkmilləşdirmək istiqamətində də tədbirlər görüləcək. Baş bankın planları arasında normativ hüquqi bazanı təkmilləşdirmək də mühüm yer tutur. Bundan əlavə, beynəlxalq maliyyə təsisatları tərəfindən buraxılan istiqrazların emissiyası və tədavülü üçün xüsusi qaydaların tətbiqi, investisiya fondlarının fəaliyyətini təşviq etmək üçün tənzimləmə qaydalarının dəyişdirilməsi də nəzərdə tutulur. Bütün bunlar Azərbaycanın maliyyə sahəsində də mövqelərinin daha güclü hala gəlməsini təmin edən mühüm faktorlardan sayılır. Bütövlükdə artıq maliyyə sektorunda müsbət meyllər var. Amma burada həlli vacib məsələlərdən biri islahatlar fonunda bankların daha çox real sektora yönəlməsini təmin etmək kimi mühüm məsələ də xüsusi yer tutur. Xatırladaq ki, bu məsələyə Prezident İlham Əliyev 2019-cu ilin yekunlarına həsr olunmuş müşavirədə də xüsusi toxunub: "Banklara əlavə 2 milyard manat resurs verilib və yenə də kreditləşmədə istehlak kreditləri üstünlük təşkil edir. Bu da çox təhlükəli tendensiya ola bilər. Ona görə biz elə etməliyik ki, bank sektoru daha çox real sektoru dəstəkləsin. Ona görə biznes kreditlərinin verilməsində baxılmalıdır ki, hansı mexanizm olmalıdır, banklar da bunda maraqlı olsunlar. Həm də ki, Mərkəzi Bank da buna nəzarət etsin. Yoxsa biz bunu başlı-başına buraxa bilmərik. Əlbəttə, bəzi banklar üçün istehlak kreditləri daha da asandır, daha əlverişlidir. Ancaq ölkə iqtisadiyyatı üçün biznes kreditləri üstünlük təşkil edir... Uçot dərəcəsi düşdükdə artıq özəl banklar tərəfindən verilən kreditlərin də faiz dərəcəsi güzəştli kreditlərin səviyyəsinə yaxınlaşacaqdır. Ona görə burada uzlaşma olmalıdır. Bank sektoru böyük bir alətdir, yəni iqtisadiyyatın real sektoruna dəstək verməlidir. Bank sektorundan heç bir sürpriz olmamalıdır. Bu il onların fəaliyyətinə, kreditlərin verilməsinə çox güclü nəzarət olmalıdır. O cümlədən, şübhəli kreditlərin verilməsi ilə bağlı mexanizm olmalıdır ki, biz artıq hadisə baş verəndən sonra yox, bəri başdan bunun qarşısını ala bilək".




**Biznes sektorunun inkişafı və ümumən iqtisadi inkişafa aparan yolda ən önəmli məsələlərdən hesab olunan maliyyə resurslarına asan çıxışın təmin olunmasıdır. Bu istiqamətdə də artı cari ildə müvafiq addımların atılması gözlənir.**

*Ramil QULİYEV*

**Azərbaycan Prezidenti İlham Əliyev xaricə yüklərin nəqlində Azərbaycan şirkətlərinin iştirakının artırılmasını zəruri hesab edir. Dövlət başçısı çərşənbə günü Nəqliyyat, Rabitə və Yüksək Texnologiyalar naziri Ramin Quluzadəni qəbul edərkən yüklərin daşınmasında Azərbaycan şirkətlərinin zəif iştirak etdiyini deyib:**

# Prezident yükdaşımalarda Azərbaycanın öz şirkətlərinin çox zəif iştirakını tənqid etdi - problem nədədir...



## *İlqar Hüseynli: "Azərbaycanın nəqliyyat sektoru yükdaşımaya deyil, daha çox sərnişindaşımaya üstünlük verir"*

"Azərbaycandan xaricə gedən yüklərin həcmi artır və artacaq. Ancaq bizim bir çox yüklərimizi xarici şirkətlər daşıyır. Bu da onunla bağlıdır ki, Azərbaycanda yük daşımalarında istifadə edilən avtomaşınlar, tırlar yerli şirkətlər tərəfindən az təmin olunur. Ona görə bu məsələyə də diqqət yetirmək lazımdır".

İ.Əliyev qeyd edib ki, ilk növbədə, yükdaşımaların neçə faizinin Azərbaycan şirkətləri tərəfindən icra edilməsi ilə bağlı təhlil aparılmalıdır: "Birinci növbədə, təhlil aparılmalıdır və mənə məruzə edilməlidir ki, yük daşımalarının neçə faizi Azərbaycan şirkətləri tərəfindən icra edilir? Tır parkına baxış keçirilməlidir. Onların vəziyyəti nə yerdədir və onların sayı bizim artan istehsalımıza uyğundur, yoxsa yox?! Əgər yeni tır maşınlarının alınmasında dövlət özəl şirkətlərə kömək edə bilərsə, biz buna hazırıq. Bu sahəyə də güzəştli kreditlər verilə bilər. Çünki bir halda ki, Azərbaycanın nəqliyyat sektoru yüksək templərlə inkişaf edir və beynəlxalq təşkilatlar bunu yüksək qiymətləndirir, nəqliyyat sektorunda bütün komponentlər yüksək standartlara cavab verməlidir. Əlbəttə, hər bir ölkə istəyir ki, onun yükləri yerli şirkətlər tərəfindən daşınsın".

Azərbaycan şirkətlərinin beynəlxalq yükdaşımalarda nə səbəbdən zəif iştirak etdiyini öyrənmək məqsədilə sosial sahə üzrə ekspert İlqar Hüseynliyə müraciət etdik.

*"Yükdaşımada yerli şirkətlərin daha çox üstünlük təşkil etməsi üçün sahibkarlar bu işdə maraqlı olmalıdırlar"*

O, "Bakı-Xəbər"ə açıqlamasında qeyd etdi ki, Azərbaycanın nəqliyyat sektoru yükdaşımaya deyil, daha çox sərnişindaşımaya üstünlük verir: "Bu səbəbdən yükdaşıma sektorunda geriləmə müşahidə olunur. Yükdaşımada yerli şirkətlərin daha çox üstünlük təşkil etməsi üçün sahibkarlar bu işdə maraqlı olmalıdırlar.

Yeni yük maşınlarının alınmasında sahibkarlar daha çox səy göstərməlidirlər. Aidiyyəti qurumlar bu işlə məşğul olan sahibkarlara, özəl şirkətlərə dəstək göstərməlidirlər. Onlara güzəştli şərtlərlə kredit verilə bilər".

Həmsöhbətimiz onu da əlavə etdi ki, Azərbaycan avtomobil nəqliyyatı ilə yükdaşımaların həcmi ötən illərlə müqayisədə artıb: "Azərbaycanda 2023-cü ildə avtomobil nəqliyyatı ilə yükdaşımaların həcminin 156,8 mln. tona çatacağı proqnozlaşdırılır ki, bu da 2019-2020-ci illər üçün olan gözləntilərlə müqayisədə 4% çoxdur. Məlumat üçün bildirim ki, 2020-ci ildə avtomobil nəqliyyatı ilə yükdaşımaların həcmi 152,3 mln. ton, 2021-ci ildə 153,7 mln. ton, 2022-ci ildə isə 155,3 mln. ton olacağı gözlənir".

İ.Hüseynli hesab edir ki, yerli şirkətlər beynəlxalq yükdaşımalarda daha aktiv fəaliyyət göstərərsə, yükdaşımaların həcmi daha da artar.

***Günel CƏLİLOVA***

---

**"Xəzər dənizinin Azərbaycan sektorunda "Abşeron" yatağından ilk qaz hasilatına 2020-2021-ci illərdə başlana bilər". Bunu Prezident İlham Əliyev görkəmli neftçi-alim və geoloq, akademik Xoşbəxt Yusifzadənin 90 illik yubileyi münasibətilə mərasimdəki çıxışında bildirib.**

# Qarşıdakı iki ildə Abşeron yatağı Azərbaycanın qaz gəlirlərini nə qədər artıra bilər - Prezidentin anonsundan doğan müzakirələr...



## *İlham Şaban: "Bu, ölkəyə əlavə 100 milyon dollardan çox qazanc gətirəcək"*

Ölkə başçısının fikrincə, "Abşeron"dan 1,5 milyard kubmetr həcmində ilk qazı bu ilin sonunda, ya da gələn il alacağıq.

Prezident onu da vurğulayıb ki, hələ 1990-cı illərdə "Abşeron" yatağında 300 milyard kubmetr həcmində qaz olduğuna dair Azərbaycan geoloqlarının bəyanatı bu gün artıq təsdiqləndi.

Məlumat üçün qeyd edək ki, "Total" 2011-ci ilin sentyabrında ilk kəşfiyyat quyusunda aparılan qazma işlərinin nəticələrinə əsasən, "Abşeron" yatağında böyük həcmdə hidrokarbon ehtiyatlarının - 326 milyard kubmetr qaz və 108 milyon ton kondensat olduğunu təsdiqləyib. İlkin mərhələdə illik təxminən 1,5 milyard kubmetr, 2022-2023-cü illərdə 5 milyard kubmetr qaz hasilatı nəzərdə tutulur. Yataqdan gündəlik 150 milyon kubmetrə yaxın, ildə isə təqribən 1,5 milyard kubmetr qaz yerli bazara çıxarıla biləcək. "Abşeron" dəniz blokunun kəşfiyyatı, işlənməsi və hasilatın pay bölgüsünə dair saziş 2009-cu ildə imzalanıb. Hazırda layihənin iştirakçıları SOCAR (50 faiz) və "Total" (50 faiz) şirkətləridir.

Bütün bunlar onu göstərir ki, "Abşeron" yatağından qaz hasilatının başlanması ölkənin qazdan əldə etdiyi gəlirləri artıracaq. Maraqlıdır, sözügedən yataqda hasilat başlayandan sonra Azərbaycanın qaz gəlirləri nə qədər arta bilər?

Məsələyə münasibət bildirən Neft Araşdırmaları Mərkəzinin rəhbəri İlham Şabanın sözlərinə görə, bu, ölkəyə əlavə 100 milyon dollardan çox qazanc gəlməsi deməkdir: "Düzdür, "Abşeron" yatağından hasil ediləcək qaz birbaşa ixrac üçün nəzərdə tutulmayıb. Həmin qaz Azərbaycanın daxili bazarına yönələcək. Yəni bu, Azərbaycanın artan qaz tələbatının ödənilməsi üçün nəzərdə tutulub. Ancaq nəzərə almaq lazımdır ki, ölkədə qazın istehlakı sənayenin artan tələbatının ödənilməsi fonunda müşahidə edilir. Çünki yeni-yeni sənaye obyektləri istifadəyə verilir. Lakin Azərbaycan qazı xammal kimi xaricə satmaq yox, onu daxildə sənaye obyektlərində daha çox əlavə dəyər yaradan məhsula çevirməklə böyük qazanc əldə etmək yolu tutur. Ona görə də qaz hasilatının artması həm birbaşa, həm də dolayı olaraq Azərbaycanın gəlirlərini artıracaq. Çünki elə yataqlar var ki, oradan hasil olunan qaz birbaşa ixrac olunur. "Abşeron" yatağından hasil ediləcək qaz isə sənaye obyektlərinə yönəldiləcək və bu, əlavə dəyər yaradacaq.

*"...qazı xammal kimi xaricə satmaqda yox, onu daxildə sənaye obyektlərində daha çox əlavə dəyər..."*

**Ona görə də bunun ölkə iqtisadiyyatına verdiyi fayda daha böyük olacaq. Məsələn, Azərbaycanda metanol, karbomid istehsal edən böyük zavodlar var. Həmin zavodların 2021-ci ildə fəaliyyətə başlayacağı gözlənir. Bu da ölkəyə əlavə 100 milyon dollardan çox vəsaitin daxil olması deməkdir. Hasil olunacaq qazın həmin zavodlara yönəldilməsi Azərbaycanın daha çox gəlir əldə edəcəyindən xəbər verir".**

***Vidadi ORDAHALLI***

Ölkəmizdə ictimai nəqliyyat infrastrukturunun, təsərrüfatının yenidən qurulması, bu istiqamətdə mövcud olan problemlərin tam olaraq aradan qaldırılması üçün dövlət tərəfindən tədbirlər həyata keçirilir. Amma indiyə qədər bu sahədə görülən işlər problemin tamamilə aradan qaldırılması üçün yetərli olmayıb.

# Regionların da avtobus təsərrüfatının yeniləşdirilməsi Prezidentin gündəliyinə düşdü - Gəncə...




## *Azər Allahverənov: "Gəncədə və digər şəhərlərdə avtobus təsərrüfatının inkişafına nail olmaq üçün Bakı modelinin tətbiq edilməsi..."*

Ölkənin, xüsusən də regionların nəqliyyat təsərrüfatının yenidən qurulması zərurəti aktuallaşıb.

Prezident İlham Əliyev Nəqliyyat, Rabitə və Yüksək Texnologiyalar naziri Ramin Quluzadəni qəbul edərkən ictimai nəqliyyat təsərrüfatında mövcud olan problemdən danışıb və onların həlli üçün nazirə göstəriş verib. "...Hələ də Bakı şəhərində keyfiyyəti yüksək olmayan və istismar müddəti bitmiş avtobuslar fəaliyyət göstərir. Mənə verilən məlumata görə, Gəncə şəhərində avtobus təsərrüfatı köhnəlib. Digər şəhərlərdə nə qədər avtobus fəaliyyətdədir, nə qədər avtobus alınmalıdır? Əlbəttə ki, ilk növbədə, paytaxt Bakının bu məsələsi həll olunmalıdır. Amma digər şəhərlər də diqqətdən kənarda qalmamalıdır" - deyə ölkə başçısı qeyd edib.

Nəqliyyat sahəsi üzrə ekspert Azər Allahverənov "Bakı-Xəbər"ə bildirdi ki, ölkənin ictimai nəqliyyat təsərrüfatının daha da inkişaf etdirilməsi vacibdir. "Nəqliyyat sahəsində vacib seqment ictimai nəqliyyat sektorunun və onun komponentlərinin təkmilləşdirilməsi məsələsidir. Məlumdur ki, bu gün paytaxt Bakıda ictimai nəqliyyat sektoru təkmilləşir. Bunun da başlıca səbəbi paytaxtda avtobus parkının yenilənməsi prosesinin həyata keçirilməsidir. Təbii ki, bu istiqamətdə işlər hələ də davam etdirilməkdədir. Ölkə başçısı İlham Əliyev Nəqliyyat, Rabitə və Yüksək Texnologiyalar naziri Ramin Quluzadəni qəbul edərkən bu məsələyə toxundu. Bu il ərzində müasir tələblərə cavab verən 300 avtobusun ölkəyə gətirilməsi məsələsi də qeyd edildi. Bu avtobusların ölkəyə gətirilməsində başlıca məqsəd ictimai nəqliyyat sektorunda sərnişindaşımanın xidmət keyfiyyətinin artırılması məsələsidir. Bunun üçün də müasir tipli avtobuslar ölkə ərazisinə gətirilir, avtobus parkı yenilənir, avtobus təsərrüfatını idarə edən kadr potensialı gücləndirilir. Bakı Nəqliyyat Agentliyinin nəzdində bu istiqamətdə təlim-tədris mərkəzi fəaliyyət göstərir. Müntəzəm olaraq avtobus sürücüləri təlim kurslarına cəlb olunurlar. Yeni Bakı şəhərində bu istiqamətdə həyata keçirilən siyasət müəyyən mənada mövcud bir strategiyanın olmasından xəbər verir. Konkret olaraq Bakıda ictimai nəqliyyat sektorunun inkişaf etdirilməsi modeli mövcuddur. Düşünürəm ki, bölgələrdə də ictimai nəqliyyat sektorunun inkişaf etdirilməsi modeli olmalıdır. Bölgələrin, xüsusən də Gəncə şəhərinin köhnələn avtobus təsərrüfatının yenidən qurulması üçün bir sıra işlərin görülməsi vacibdir. Hesab edirəm ki, Bakı şəhərində görülən işlərin, bütövlükdə, təkmilləşdirmə modelinin həm də Gəncədə, eyni zamanda, digər şəhərlərdə həyata keçirilməsinə, tətbiqinə ehtiyac var".

Amma bu məsələdə bir xüsusi nüans olduğunu qeyd edən A.Allahverənovun sözlərinə görə, bölgələrdən fərqli olaraq, Bakıda bir sıra daşıyıcı şirkətlər var ki, onlar bu missiyanı yerinə yetirirlər. O hesab edir ki, avtobus təsərrüfatının, parkının yenilənməsi həmin o daşıyıcı şirkətlərin bu sahəyə sərmayələr yatırtması və daxil etməsi nəticəsində baş verir. "Düzdür, bu, hələ istənilən səviyyədə deyil. Prezident öz çıxışında da qeyd etdi ki, hələ də Bakı şəhərində sərnişindaşıma tələblərinə uyğun gəlməyən, istismar müddəti başa çatan avtobuslar var. Amma onların hamısını birdənbirə marşrutlardan kənarlaşdırmaq çətindir. Çünki Bakı şəhərinin əhalisinin məskunlaşması kifayət qədər genişdir, bu səbəbdən də hansısa bir avtobusun xətdən kənarlaşdırılması ayrı-ayrı ərazilərdə sərnişindaşımada gərginliyin yaranmasına gətirib çıxar bilər. Bu da arzuolunan hal deyil. Bu baxımdan, Gəncədə də eynilə bu modelin tətbiq olunması vacibdir. Bu, Gəncə Şəhər İcra Hakimiyyəti tərəfindən idarə olunan bir prosesdir. Çünki Gəncədə ictimai nəqliyyat sektorunun idarə olunması məsələsinə Gəncə Şəhər İcra Hakimiyyəti cavabdehdir. Düşünürəm ki, Gəncədə və digər şəhərlərdə avtobus təsərrüfatının inkişafına nail olmaq üçün Bakı modelinin tətbiq edilməsi, sərnişindaşıma sahəsində xidmət göstərəcək daşıyıcı şirkətlərin potensial imkanlarının artırılması, onlara əlavə subsidiyaların verilməsi, ümumiyyətlə, bu sahəyə müəyyən güzəştlərlə kreditlərin ayrılması vacibdir. Bu amil Gəncədə də, digər regionlarda da ictimai nəqliyyat sektorunda xidmət göstərən daşıyıcıların çoxalmasına səbəb olmaqla yanaşı, eyni zamanda, rəqabətlilik mühitinin sərnişinlərin tələblərinə cavab verəcək şəkildə qurulmasına gətirib çıxara bilər" - deyə A.Allahverənov vurğuladı.

***İradə SARIYEVA***

---

Xəbər verildiyi kimi, Baş prokuror yanında Korrupsiyaya qarşı Mübarizə Baş İdarəsi və Korrupsiyaya qarşı mübarizə üzrə Komissiya tərəfindən ölkəmizdə korrupsiyaya qarşı mübarizə sahəsində 2019-cu il ərzində görülmüş işlər və qarşıda duran vəzifələrlə bağlı kütləvi informasiya vasitələri və qeyri-hökumət təşkilatları nümayəndələrinin iştirakı ilə mətbuat konfransı keçirilib.

# Ölkədə MTK-ların bir mənzili çox müştəriyə satmaq cinayətlərinin kökü hələ kəsilməyibmiş...



## *Nüsrət İbrahimov: "Belə cinayətlərin qarşısını almaq üçün əmlak alqı-satqısı ilə bağlı işlək mexanizm yaradılmalıdır"*

Konfransda bir sıra məsələlərə toxunulub. Baş prokurorun müavini - Baş prokuror yanında Korrupsiyaya qarşı Mübarizə Baş İdarəsinin rəisi Kamran Əliyev bildirib ki, 2019-cu il ərzində Baş İdarədə 497 şəxs barəsində 310 cinayət işinin istintaqı tamamlanaraq baxılması üçün aidiyyəti məhkəmələrə göndərilib.

Bununla yanaşı, tədbirdə o da məlum olub ki, mənzil-tikinti kooperativlərinin vəzifəli şəxsləri və onlarla cinayət əlaqəsinə girmiş digər şəxslər tərəfindən ayrı-ayrı vətəndaşlara satılmış mənzilləri təkrar satmaqla dələduzluq yolu ilə özgələrinə məxsus külli miqdarda pul vəsaitlərinin ələ keçirilməsi faktları üzrə vurulmuş maddi ziyanın ödənilməsinin təmin edilməsi üçün aidiyyəti dövlət qurumları ilə birgə tədbirlər görülüb.

Belə görünür ki, mənzil tikintisi ilə məşğul olan MTK-lar hələ də bu cür dələduz əməllərlə məşğul olurlar. Yəni bir mənzil bir neçə nəfərə satılır və nəticədə vətəndaşlar aldadılır. Onu da qeyd edək ki, bir neçə il əvvəl belə cinayət hallarının sayı daha çox idi. Xeyli sayda mənzil alan belə dələduzluqlarla üzləşib. Bütün bunların başında da MTK-lara rəhbərlik edən şəxslər dayanır. Görülən tədbirlər nəticəsində, əvvəlki illərə baxanda bu cür halların sayı azalıb. Ancaq bəlli olur ki, hələ də bəzi MTK-larda belə cinayətlərə rast gəlinir. Baxmayaraq ki, mənzil tikintisi və alqı-satqısı ilə bağlı boşluqlar aradan qaldırılıb, əvvəlki kimi bu sahədə xaotik vəziyyət yoxdur.

*"Yalnız o zaman bəzi MTK rəhbərləri cinayət yolu ilə bir mənzili bir neçə nəfərə sata bilməz"*

Bütün hallarda, bir mənzilin bir neçə nəfərə satılması kimi cinayətlərin kökünü necə kəsmək olar?

Məsələyə münasibət bildirən əmlak məsələləri üzrə ekspert Nüsrət İbrahimovun sözlərinə görə, belə cinayətlərin qarşısını almaq üçün əmlak alqı-satqısı ilə bağlı işlək mexanizm yaradılmalıdır: "Bununla bağlı müvafiq qanunlarda dəyişiklik edilməli və bunun işlək mexanizmi yaradılmalıdır. Bir ara parlamentdə Mülki Məcəlləyə dəyişikliklə bağlı məsələyə baxıldı, amma, nədənsə, onun işlək mexanizmi yenidən formalaşdırılmadı. Bir növ, sözügedən məsələ yarımçıq qaldı. Deməyim odur ki, bütün bunlar tam həll edilməlidir ki, əmlak satışındakı boşluqlardan "iş adamları" istifadə edə bilməsinlər. Belə olsa, o zaman bəzi MTK rəhbərləri cinayət yolu ilə bir mənzili bir neçə nəfərə sata bilməz. Hesab edirəm ki, bunun yeganə həlli budur. Ancaq nəzərə almaq lazımdır ki, son üç ildə belə dələduzluqların sayı azala-azala gedir. Lakin buna baxmayaraq, yenə də az da olsa, bazarda belə hallara rast gəlinir.

Bununla belə, yeni tikililərin hamısı reyestrə düşməlidir. Həm Şəhərsalma və Arxitektura Komitəsinin reyestrinə, həm də Əmlak Məsələləri üzrə Komitənin reyestrinə. Bundan sonra binanın ilkin qeydiyyat sənədi alınır. Ondan sonra mənzillər satılarkən hər bir kəslə ayrıca notarial qaydada alqı-satqı edilməlidir. Yoxsa, bunun başqa variantı olsa, o zaman hər cür əyinti, neqativ hal baş verə bilər. O üzdən, bütün tikinti şirkətləri buna əməl etməlidirlər".

***Vidadi ORDAHALLI***

# Qaz smart-kartlarında yeni maxinasiyalar - "Azəriqaz" abonentdən xəbərsiz karta pul qoyur, deyəcəksiniz bunun nəyi pisdir, ancaq...

**Ceyhun Səfərov:** *"Proqram təminatında problem olduğu üçün kartlarda yalançı məbləğlər görünür"*

**Son günlər bəzi "Azəriqaz" abonentləri balansı artırmaq üçün kartlarına pul yükləmək istəyərkən problemlə üzləşirlər. Məsələ ondadır ki, abonent karta pul yükləmədiyi halda, smart-kartda müəyyən məbləğin görünməsi balansı artırmağa imkan vermir. Çünki kart boş olduqda ona vəsait yükləmək olur.**

*"Bununla bağlı biz Fransa şirkəti ilə müzakirələr aparacağıq"*

Vətəndaş təzədən kartı sayğaca qoşanda məlum olur ki, kartda vəsait yoxdur. Beləcə, kartda yalançı məbləğlər göründüyü üçün, vətəndaşlar ödəniş apara bilmirlər.

Smart-kartda yalançı məbləğ göründüyü üçün vətəndaş ya sayğacla ödəmə terminalı arasında bir neçə əməliyyatı icra etdikdən sonra karta pul yükləyə bilər, ya da "ASAN Kommunal" mərkəzlərinə gedərək kartı sıfırlada bilər. Bu isə, təbii ki, abonentlər tərəfindən haqlı olaraq narazılıqla qarşılanır. Çünki bunu heç də hamı bilmir. Başqa bir tərəfdən, belə problemlər vətəndaşların vaxt itkisinə səbəb olur. Problem həm də ondadır ki, belə halların sayı artıb.

Digər tərəfdən, ötən ilin son həftələrində bir sıra vətəndaşlar bu problem üzündən əvvəlki qaz limitlərini belə karta yükləyə bilməyiblər. Bununla bağlı çoxsaylı fakt var. Qeyd edək ki, əhali qrupu üzrə istehlak olunan təbii qazın illik həcminin 2 200 kubmetr olan hissəsinin dəyəri 10 qəpiklə, 2 200 kubmetrdən artıq istifadə olunan hər kubmetr qazın dəyəri isə 20 qəpiklə hesablanır. Hər il yanvarın 1-dən limit yenilənir.

Maraqlıdır, smart-kartlarda yalançı məbləğlər necə yaranır?

Məsələ ilə bağlı "Azəriqaz" İstehsalat Birliyinin Mətbuat xidmətinin rəhbəri Ceyhun Səfərovla əlaqə saxladıq. O, "Bakı-Xəbər"ə açıqlamasında sözügedən problemin proqram təminatı ilə bağlı olduğunu bildirdi: "Belə bir problemin olması bizə də məlumdur. Problem ondadır ki, kartlarda yalançı məbləğlər görünür. Bunun yaranma səbəbi proqram təminatı ilə bağlıdır. Proqram təminatında problem olduğu üçün, kartlarda yalançı məbləğlər görünür. Bu səbəbdən kartlarda belə problemlər yaranır. "Smart-kart" tipli sayğaclar Fransanın "İtron" şirkətinin istehsalıdır. Sözügedən şirkətin təmsilçilərini ölkəyə dəvət etmişik ki, yaranan bu texniki problemi aradan qaldırsınlar.



Bununla bağlı biz Fransa şirkəti ilə müzakirələr aparacağıq. Proqram təminatında olan bu problemlər aradan qaldırıldıqdan sonra məsələ həllini tapacaq. Hazırkı vəziyyətdə smart kartlarda görünən bu yalançı məbləğlərin silinməsi üçün abonent "ASAN Kommunal" mərkəzlərinə müraciət edə bilər. Həmin mərkəzlərdə yalançı məbləğlər dərhal kartın yaddaşından silinir. Ondan sonra əvvəlki qaydada kartdan istifadə etmək mümkün olur".

***Vidadi ORDAHALLI***

# Azərbaycanda təmayüllü məktəb siniflərinin sayı sürətlə artır - prosesin mümkün nəticələri...

**Kamran Əsədov:** *"Məktəblərin təmayülləşməsi şagirdlərin davamiyyətinə də təsir edir"*

**Azərbaycanda tam orta təhsil səviyyəsində təhsilin təmayüllər üzrə təşkil olunduğu məktəblərin şəbəkəsi genişləndirilir. Bakı Şəhəri üzrə Təhsil İdarəsinin tabeliyindəki ümumtəhsil müəssisələrində 2019-cu təqvim ilində təmayülləşmənin miqyası genişlənib.**



İdarənin yaydığı məlumatda qeyd olunur ki, 187 ümumtəhsil müəssisəsində 702 təmayül sinif təşkil olunub. Təmayül siniflərə 15 643 şagird cəlb olunub. Təmayül siniflər 8 istiqamət üzrə müəyyənləşdirilib. Onlardan 109-u texniki təmayüllü, 55-i riyaziyyat-iqtisadiyyat təmayüllü, 128-i humanitar təmayüllü, 9-u təbiət təmayüllü, 85-i texniki və riyaziyyat-iqtisadiyyat təmayüllü, 142-si texniki və təbiət təmayüllü, 169-u humanitar və riyaziyyat-iqtisadiyyat təmayüllü, 5-i isə peşə təmayüllü siniflərdir.

Qeyd edək ki, ümumi təhsildə keyfiyyətə birbaşa təsir edən amillərdən biri də "Azərbaycan Respublikasında təhsilin inkişafı üzrə Dövlət Strategiyası"nda da təsbit olunmuş tam orta təhsil səviyyəsində tədrisin təmayüllər üzrə təşkili məsələsidir. Şagirdlərin seçdikləri ixtisas istiqamətləri üzrə daha yüksək bilik və bacarıqlara yiyələnməsini təmin etmək məqsədilə son illər bu sahədə ciddi addımlar atılır, təhsilin təmayüllər üzrə təşkil olunduğu məktəblərin şəbəkəsi ardıcıl şəkildə genişləndirilir.

Təmayüllü məktəblərin artması barədə fikir bildirən təhsil eksperti Kamran Əsədov qeyd etdi ki, Təhsil Nazirliyi 2011-ci ildə orta məktəblərdə təmayülləşməni həyata keçirmək məqsədilə ilkin olaraq 5 məktəbdə pilot layihənin icrasına başladı: "2014-2015 tədris ilində bu 5 müəssisəyə daha 3-ü əlavə olundu və artıq keçən dərs ilində 8 ümumtəhsil müəssisəsində təmayül təhsilə başlandı. Bu layihənin nəticələrinin təhlili, eyni zamanda, valideynlər tərəfindən də müsbət qarşılanması, xüsusilə repetitorluğun qarşısının alınmasında əməli rol oynaması nəzərə alınaraq, bu il daha 50 təhsil müəssisəsində təmayül təhsil verilməyə başlandı. Hazırda ölkə üzrə məktəb, lisey, gimnaziya, məktəb-lisey də olmaqla, çoxlu sayda ümumtəhsil müəssisəsində bu proses həyata keçirilməyə başlanıb. Bu da ölkə üzrə 10-cu sinif şagirdlərinin 3,6 faizini əhatə edir. Burada 9-10-cu sinif şagirdləri təbiət, texniki-riyaziyyat, iqtisadiyyat və humanitar təmayüllü siniflərdə təhsil alırlar. Bəzi məktəblərdə iki təmayül üzrə siniflər açılıb. Heç kəsə sirr deyil ki, valideynlər uşaqlarını ali məktəbə hazırlamaq üçün dərsdən ayıraraq 4-5 fənn üzrə hazırlığa qoyurlar,

*"Təmayüllü məktəblərin yaradılmasında məqsəd hər fənn üzrə şagirdə minimum bilik verməklə, onu seçdiyi ixtisasa daha çox uyğun olan sahəyə yönəltməkdən ibarətdir"*

digər fənlər nəzərə alınmır. İndi məqsəd hər fənn üzrə şagirdə minimum bilik verməklə, onu seçdiyi ixtisasa daha çox uyğun olan sahəyə yönəltməkdən ibarətdir. 2014-cü ildə Təhsil Nazirliyi tərəfindən təsdiq olunmuş fərdi tədris planına əsasən, ötən il liseylərdə riyaziyyat-iqtisadiyyat, humanitar və təbiət təmayüllü siniflər yaradılıb. Əvvəlki proqrama görə, məcburi dərs yükü 33-34 saat olmalıdır. Amma indiki tədris planında məcburi dərs yükü maksimum 30 saatdır, fənlərin sayı azaldılıb. Fiziki hazırlıq və gənclərin çağırışa qədər hərbi hazırlığı zəruri ehtiyac olan fənlərdir, bunlardan başqa, şagirdin meyil-maraq qabiliyyətinə uyğun olaraq, fənlərin sayı minimuma endirilib".

**Şagirdlərin əsasən yuxarı siniflərdə hazırlığa getdiyinə diqqət çəkən ekspert bunun davamiyyətə təsir etdiyini dilə gətirdi: "Bu layihəyə əsasən, 9-cu sinfə qədər şagirdə bütün minimum biliklər verilir, 10-11-ci siniflərdə meyil-maraq qabiliyyətinə uyğun olaraq, şagirdin seçdiyi ixtisasa uyğun fənlərdən daha geniş və dərin təhsil alması nəzərdə tutulur.**

***Günel CƏLİLOVA***

**Azərbaycan Respublikası Mədəniyyət Nazirliyi Respublika Xatirə Kitabı redaksiyası ilə "Bakı-xəbər" qəzetinin birgə layihəsi əsasında "Şəhidlər ölməz, Vətən bölünməz" seriyasından "İgid ömrü" adlı növbəti kitabın hazırlanmasına start verdik. Kitabda Azərbaycanın Milli Qəhrəmanı Füzuli Salah oğlu Rüstəmovun vətənpərvərlik nidalı həyat, döyüş, qəhrəmanlıq yollarından bəhs edəcəyik.**

# İgid ömrü

## Əbədiyyətə doğru yol gedən Füzuli barışmazlığı

**(birinci yazı)**

" Şah İsmayıl gecəni yata bilmir. Çadırda şölələnən şama və şamın ətrafında dolanıb özünü onunla birgə yandırıb məhv edən pərvanələrə fikir verir. Əsgərlərini bu pərvanələrlə müqayisə edərək xanımına söyləyir ki, onlar da sabah bu canlılar kimi öləcəklərini, ailələrini başsız qoya biləcəklərini anlaya-anlaya döyüşə girəcəklər. Səbəbsə birdi: onları bu döyüşə aparan məslləkləri, əqidələri".

**Fərman Kərimzadə, "Çaldıran döyüşü"**

Xocalılıları axtarırdım. Azərbaycanın bu yurd yeri uğrunda böyük igidliklər göstərmiş, Xocalı faciəsinin o müdhiş gecəsinin şəhidi, qurbanı, Azərbaycanın Milli Qəhrəmanı Füzuli Salah oğlu Rüstəmovun qəhrəmanlıqlarla zəngin həyat yolunu "sapa" düzmək üçün...Yollara çıxdım. İlkin soraqları Bakının Pirşağı qəsəbəsindən gəldi xocalılıların. Dedilər burda orta məktəbləri də var. 2 saylı tam orta məktəbin direktorusa Füzulinin doğmaca və yeganə bacısı, eləcə də bu dünyada özündən sonra yaşayan yeganə doğması Fiqurə Salah qızı Rüstəmovadı. Deməli, qəhrəmanımın ən əziz adamından başlamaq fürsəti yaranıb. Onun xarakterinin uşaqlıq, gənclik çağlarından açılmasında Fiqurə xanım ən dəyərli, ən gərəkli nümunə, mənimçün həm də canlı tarixdi. Qarşıda... qarşıda dostlarla, döyüşçülərlə, Xocalı qətliamından Füzulinin yardımıyla qurtulanlarla, daha kimlərlə görüşlərimiz olacaq... Çalışacağam ki, bu bütöv şəxsiyyətli vətənpərvər oğulun qocaman tarixdə örnək ola biləcək xarakterini sizlərin gözləri önündə tam mənasilə canlandıram, əziz oxucular! Bəs Füzuli Rüstəmov kimdir?

...Füzulinin həyat yolu, paralel olaraq bütün soydaşlarımızın ürəyində qubar bağlamış Xocalı harayının ayrılmaz bir parçasıdı. Füzulinin Vətən sevgisi heç bir ekvivalentlik tanımayan örnəkdi. Füzulinin ölümü saysız-hesabsız xocalılının ölümdən qurtuluşudu. Füzulinin qeyrəti azərbaycançılığın əbədi yaşayacağı yolda heç vədə solmayacaq məşəldi. Füzuliyə etibarlılıq dastanlara sığmayacaq həqiqətdi. Füzulinin ruhusa Xocalı göylərində sərgərdandı...

Kitabı başdan-başa oxuyanda bu yuxarı abzasda qeyd etdiklərimi bircəbircə analiz etmək imkanı yaradacam sizlərə. Həyatda daha çox reallığın tərəfdarı olduğumdan, yazılarımda da çalışmışam heç zaman mümkün qədər mübaliğədən istifadə etməyim. Bədəfəki qəhrəmanım - Azərbaycanın Milli Qəhrəmanı Füzuli Rüstəmov da dünyamızda özünün cızdığı təkrarsız portret cizgiləri ilə mübaliğəyə ehtiyac yeri qoymayıb.





**Xocalının bir hissəsi - bərbad Pirşağı sanatoriyası...**

...Yollara çıxıram. Xocalılıların sığındığı Pirşağı sanatoriyasınadı yönüm. Xəzər dənizinin sahil sularının yüz addımlığında yerləşən, təmiz havası və suyuna görə zamanında böyük sağlamlıq ocağı kimi tanınan bu kurort mərkəzinin uçuq-sökük tikililərinə pənah gətiriblər xocalılılar. İndi bu binaların uçuq-sökük görkəmlərinin yanında onların bəzilərinin özlərinə tikdiyi evlər də var. Sanatoriyanın həyətini uşaqlıqdan örüş yerlərində gördüyümüz, bəzilərinin tikanına görə "qındırğa", bəzilərinin gülünə görə oxşadıb qarışdıraraq "qılıncgülü" adlandırdığı yabanı güllər basıb. Xocalılıların uşaqları bu yabanı bitkilərin arasında boy verən xırda otlaqlı çəmənlikdə qoyun-keçi otarırlar. Yarı kəndi, yarı dağıdılmış şəhəri xatırladır bu yerlər. Zamanında asfalt döşənmiş yollar bərbad, çalaçuxurlu duruma düşüb. Buralar Xocalının o sonuncu günlərini - işıqsız, köməksiz qalmış vəziyyətini özündə yaşadan bir məkana bənzəyir. Amma təbii ki, təhlükəsiz...

Xocalı məktəbinə yetişirəm. Bir kənd məktəbini xatırladır. Nisbətən yeni tikilidi. Sonradan biləcəm ki, məktəb Fiqurə xanımın təşəbbüsü ilə inşa olunub. Pirşağının başqa istiqamətinisə böyük villalar bəzəyir. Yəqin dəniz sahili olduğuna görə keçmişdə bağ yerləri kimi tanınan ərazilərdə ucaldılıb bu villalar. Artıq buralara yayda sərinliyi ilə seçilən bağlar massivi demək olmaz. Hündür hasarlarla əhatə olunan çoxmərtəbəli evlər, obyektlər buraların statusuna çoxdan"əl gəzdirib". Bunları sadəcə yeri gəldi yazdım. Bunların bizim mövzumuza o qədər də aidiyyəti yox.

...Məktəbə daxil olub Fiqurə xanımı soruşuram. Qabaqcadan telefon açdığımdan gəlişimdən xəbərdardılar. Məni direktorun otağına aparırlar. Bu da qəhrəmanımızın dünyamızda qoyub getdiyi "aman-zaman" bacısı. Füzuli şəhid olanda Fiqurə xanımın vur-tut on doqquz yaşı varmış. On doqquz yaşlı bir qız uşağının bu boyda dəhşəti təkbaşına yaşaması...Vətən, torpaq, ev-eşik, yeganə arxa-dayağı olan Füzuli kimi qardaşın və ölüm-itiminin sayı bu günədək də tam dəqiqləşdirilməyən xocalılı həmyerlilərinin, həmvətənlərinin qətliamı...dünənədək qonşuluğunda, kəndində yaşayanların meyitlərinin televiziya ekranlarından göstərilən dəhşətli səhnələri - təhqir edilmiş meyitlər, divan tutulan qocalar, körpələr... bunları təfərrüatı ilə yaza bilməyəcəyəm. Bunları onun və Füzulinin dostları olmuş həmkəndlilərinin öz dillərindən eşidəcəyik.

**Bu yolu ancaq seçilmişlər gedir...**

Füzulinin köksünə sığmayacaq Vətən sevgisi, eyni zamanda torpaqlarımızı addım-addım qəsb edən ermənilərə bu qədər nifrəti hardan qaynaqlanırdı görən?! Onun şəcərəsinin yaşadığı coğrafi məkana diqqət edin. Ata babaları Azərbaycanın qərb hissəsində yerləşmiş, əzəli yurd yerlərimiz olan Dərələyəz mahalında yaşamışlar. Sonra buradan Naxçıvana köç etməyə məcbur olublar. Nəslin bir hissəsi Naxçıvanda yaşamağa davam edib. Qardaşlardan biri isə ölkəmizin digər böyük bir mahalına - Qarabağa üz tutub. İndiki Tərtər bölgəsinin Hüsənli kəndində yaşayıb. Onun bu kənddə doğulub ərsəyə çatmış qızını Naxçıvandakı qardaşının oğlu qaçırıb ailə qurub. Amma bu qardaşoğlu Naxçıvanda qərar tutmayaraq gəlib əmisinin - qayınatasının məskunlaşdığı məmləkətində yaşayıb. Bütün bu gəlişmələr sanki Füzulini addım-addım ermənilərlə döyüşə, Xocalının müdafiəsinə və nəhayət Xocalı qətliamının qurbanlarından olmağa sürükləyib. Füzuli, şəcərəsinin əhatə etdiyi böyük bir coğrafiyanın müdafiəçisi olmaqla, elə bu torpağın qəhrəmanı kimi özünə tariximizdə əbədi yer də edə bilib. Buna Allahın qismətimi deyək, Füzulinin taleyimi deyək, bilmirəm. Bircə onu görürəm ki, Füzulini ağuşuna alan bütün yollar onun qəhrəmanlıq salnaməsinin bu xüsusda sonuclanmasını mütləq zərurətə çevirirmiş. Füzuli barışmazlığı ilə əbədiyyətini haqq edirmiş, qazanırmış. Taleyi ona ayrı bir yol saxlamayıbmış ki, Xocalı gecəsi hamı canının hayında olanda, o, dördüncü, beşinci, bəlkə də altı-yeddinci dəfə üreyindən çıxara bilmədiyi Xocalıya tərəf - həm də ümidsiz, çar-naçar yollara səpələnmiş xocalılıların harayına qayıdır, köməksiz həmyerlilərinə bələdçilik edir və öz əbədiyyətini elə bu gecənin zülmətindəcə yaxınlaşdırırmış. Hava işıqlaşanda vurublar Füzulini.

Bəlkə də ona görə ki, Füzuli daha işığa çıxmamalı imiş. Onun işığı yanıb-yanıb sozalıbmış. Füzuli işığını Vətəni yolunda bir şam kimi əridib qurtarıbmış. İyirmi altı yaşında bundan artıq işığı hardan alaydı Füzuli?! Bu qədər Vətən sevgisini, bu qədər namus-qeyrət nişanələrini öz kiçik vücudunda daşıya bilməsi onsuz da hər kəsə nəsib ola bilməzdi. Bu yolu ancaq seçilmişlər - Allahın sevimli bəndələri gedə bilər. Füzuli belə bəndələrdən idi. Şahidləri - onu yaxından tanıyanları dinlədikcə bu qənaətə özünüz gələcəksiniz. Füzuli xocalılıların, mənsə Füzulinin tanıtımında qəhrəmanı mühakiməmi tanıtmaq məqsədi güdürəm. Füzuli xocalılıların, mənsə Füzulinin tanıtımında qəhrəmanı, əziz oxucular! Füzuli özünü qurban verimmiş. Şüurlu şəkildə. Əqidəsi, məsləki, Vətəni, xalqı, namus-qeyrəti yolunda. Böyük yazıçımız Fərman Kərimzadənin Şah İsmayılın əsgərləri haqqında yazdığı kimi...

***Nəzirməmməd Zöhrablı***
***Jurnalist-publisist***
***(ardı var)***

# Akademiyanın dövlət büdcəsindən asılılığını azaltmağın yeni üsulu - İnnovasiya Fondu...

**Azərbaycan Milli Elmlər Akademiyasının (AMEA) uzun illərdir dövlət büdcəsindən ayrılan vəsait hesabına fəaliyyət göstərdiyi məlumdur. Müvafiq elmi-tədqiqat institutlarının, elmi mərkəzlərin, innovativ təşkilatların həyata keçirməli olduğu layihələr, tədqiqatlar nəticəsində böyük məbləğdə vəsait əldə etməli olan AMEA-nın hələ ki, bu istiqamətdə nailiyyətləri yoxdur.**

*"İnnovasiya Fondu, həmçinin, gələcəkdə elmin dövlət büdcəsindən asılılığının azalmasına yardım edəcək"*

**İlqar Orucov:** *"Yeni yaradılan fond vasitəsilə akademiya müxtəlif dövlət və özəl qurumlar, istehsalçı şirkətlərlə işlər quracaq"*



Sözsüz ki, müəyyən patentlər, kiçik ixtiralar üzrə əldə edilən gəlirləri nəzərə almasaq, AMEA-nın indiyə qədər dövlət büdcəsindən kənarda əldə etdiyi gəlirlər yalnız qurumun icarəyə verilmiş ərazilərinin, otaqların hesabınadır.

Bu gün isə AMEA artıq dövlət büdcəsindən asılılığın azaldılması yönündə müəyyən addımlar atmaqdadır. Bilirik ki, AMEA əməkdaşlarının əməkhaqqı çox aşağıdır və dəfələrlə onların maaşının artırılması gündəmdə olsa da, bu məsələ hələ də aktualdır. Bir sıra ekspertlər qeyd edirlər ki, AMEA əməkdaşlarının maaşlarının artırılması üçün qurumun özünün xüsusi layihələri olmalıdır.

Yavarın 15-də AMEA-nın Rəyasət Heyətinin ümumi yığıncağı keçirilib və iclasda qeyd edilib ki, AMEA-nın əməkhaqqı siyasətilə bağlı işlər görüləcək. AMEA rəhbərliyi bildirib ki, artıq qurumda İnnovasiya Fondu yaradılıb və fondun akademiyaya əlavə gəlirlər gətirəcəyinə böyük ümidlər bəslənir. Bundan başqa, yaradılan İnnovasiya Fondunun layihələrindən gələn gəlirlərin hesabına AMEA-nın dövlət büdcəsindən asılılığını azaldacağı da deyilir.

Gənc Alim, Aspirant və Magistrlər Cəmiyyətinin sədri, Təhsil Nazirliyi yanında İctimai Şuranın məsul katibi, fizika-riyaziyyat üzrə fəlsəfə doktoru İlqar Orucov hesab edir ki, AMEA-da İnnovasiya Fondunun yaradılması təqdirəlayiq haldır. "Heaab edirəm ki, İnnovasiya Fondu akademiya və onun əməkdaşları üçün faydalı bir qurum olacaq. AMEA-da rəhbərlik dəyişdikdən sonra bu qurumda xeyli innovativ işlər görülməyə başlayıb. İnnovasiya Fondunun yaradılması ilə bağlı qəbul edilən qərar da bunun tərkib hissəsinə aiddir. Açıq deyək, uzun müddət idi ki, biz bununla bağlı AMEA-nın keçmiş rəhbərliyinə çoxlu təkliflər verirdik, innovasiyaların maliyyələşdirilməsi, dəstəklənməsi, tətbiqi ilə əlaqədar işlərin görülməsinin vacibliyini qeyd edirdik. Xüsusilə biz gənc alimlər arasında innovasiyanın təşviqi ilə uzun illər məşğul olduq. Təsadüfi deyil ki, gənc alimləri bu işə cəlb etmək üçün 3 dəfə geniş tədbir keçirdik. Tədbir "Gənc alimlərin innovativ ideya yarmarkaları" adlanırdı. Orada bizim gənc alimlər öz innovativ işlərini, layihələrini təqdim edirdilər. Bunu Gənc Alim, Aspirant və Magistrlər Cəmiyyəti Gənclər və İdman Nazirliyi, AMEA-nın Rəyasət Heyəti, AMEA-nın Gənclərin İntellektual İnkişaf Mərkəzi ilə birgə həyata keçirirdi. Üç il ərzində akademiyada gənc alimlər arasında bu işi xeyli genişləndirə bildik. Amma təəssüflər olsun ki, sonrakı dönəmlərdə bu işlərə akademiyanın rəhbərliyinə çox köhnə fikirli insanların gəlməsi son qoydu. Çox sevinirəm ki, yeni yaradılan İnnovasiya Fondu nəinki gənc alimləri, bütövlükdə, akademiyanı əhatə edir. Akademiyada innovasiya ilə bağlı tədbirlərin həyata keçirilməsi üçün ortada artıq güclü iradə, istək, arzu var. Bu təşəbbüslərin gerçəkləşdirilməsi üçün İnnovasiya Fondunun yaradılması çox zəruri idi. Akademiya məhz İnnovasiya Fondunun vasitəsilə öz elmi məhsullarını satışa çıxara bilər. Fikrimcə, yeni yaradılan fond vasitəsilə akademiya müxtəlif dövlət və özəl qurumlar, istehsalçı şirkətlərlə işlər quracaq və bunun nəticəsində də AMEA xeyli məbləğdə gəlir əldə edə biləcək. Akademiyanın, bütövlükdə, elmin pul qazanması alimlərin innovasiya fəaliyyətinin hansı səviyyədə olması ilə qarşılıqlı əlaqədədir. İnnovasiya tətbiq olunacaqsa, elmi məhsullar öz tətbiqini tapacaq, elmi ideyalar istehsalata yönələcək, beləliklə də ölkədə bilik iqtisadiyyatının formalaşması istiqamətində ilkin də olsa müəyyən işlər görüləcək".

İ.Orucov hesab edir ki, gələcəkdə akademiyanın elmi tədqiqatları innovativ istiqamətdə olmalıdır. "Əlbəttə, elm pul qazanmalıdır.

Elmin pul qazanması isə elmi ideyanın məhsula çevrilməsindən bilavasitə asılıdır. Bu fond bu istiqamətdə həm alimlərin arzularının reallaşdırılmasına dəstək göstərəcək, eyni zamanda, bütövlükdə, Azərbaycanda bilik iqtisadiyyatının formalaşması istiqamətində öz dəstəyini ifadə edə biləcək" - deyə İ.Orucov vurğuladı.

O qeyd etdi ki, İnnovasiya Fondunun yaradılması akademiyada illərdir gözlənilən məsələlərdən biri idi: "Biz hər zaman elmin dövlət büdcəsindən asılılığının azaldılmasını, elmin pul qazanmasını gündəmə gətirirk. Hesab edirəm ki, İnnovasiya Fondu, həmçinin, gələcəkdə elmin dövlət büdcəsindən asılılığının azalmasına yardım edəcək. Çünki artıq bununla bağlı AMEA rəhbərliyi işlər görür, ortaya iradə qoyur".

***İradə SARIYEVA***

# Narkoloji Dispanserdə dərman qıtlığı - nə baş verir...

**Lənkəran Rayonlararası Narkoloji Dispanserində xəstə qəbulu ilə bağlı problem yaşanması haqqında məlumatlar yayılır. Bildirilir ki, dispanserdə dərman yoxdur deyərək, narkomaniyadan əziyyət çəkən şəxsləri qəbul etmirlər.**



*"Bir həftə və ya 10 günə dispanserə xəstə qəbulu yenidən bərpa olunacaq və onu da deyim ki, dərmanın olmaması ilə bağlı yayılan informasiya həqiqət deyil"*

***Lənkəran Rayonlararası Narkoloji Dispanseri - Vüqar Balayev:*** *"Qısa müddətə dispanserə xəstə qəbulu dayandırılıb"*

Narkomaniyadan əziyyət çəkən Masallı rayonu Ərkivan kənd sakini Adisey Camalov Lənkəran Rayonlararası Narkoloji Dispanserinə qəbul olunmur. Bu barədə Adisey Camalovun yaxınları sosial şəbəkədə məlumat yayıblar: "Əvvəlcə dedilər ki, yerimiz yoxdur. Biz də bildirdik ki, Adiseyin vəziyyəti çox ağırdır, o mütləq dispanserə yerləşdirilməlidir. Sonra dedilər ki, dərman yoxdur".

Onların sözlərinə görə, Səhiyyə Nazirliyinin "qaynar xətt"inə müraciət etsələr də, heç bir nəticəsi olmayıb: "Bir neçə saat dispanserin qarşısında gözlədik, xahiş etdik, Səhiyyə Nazirliyinin "qaynar xətt"inə zəng vurduq, amma xeyri olmadı. Məcbur qalıb evə qayıtdıq".

Məsələ ilə bağlı Lənkəran Rayonlararası Narkoloji Dispanserilə əlaqə saxladıq. Dispanserin gözətçisi Vüqar Balayev "Bakı-Xəbər"ə açıqlamasında qeyd etdi ki, qısa müddətə dispanserə xəstə qəbulu dayandırılıb: "Bunun məlum səbəbləri var. Məlumat üçün bildirim ki, biz Bakıya tabeyik. Onlar nə deyirsə, bizdə onu edirik. Ancaq bu hal çox uzun çəkməyəcək. Ancaq dispanserdə dərmanın olmaması ilə bağlı yayılan informasiya həqiqət deyil".

Həmsöhbətimiz onu da əlavə etdi ki, bir həftə və ya 10 günə dispanserə xəstə qəbulu yenidən bərpa olunacaq.

***Günel CƏLİLOVA***

№ 8 (4139) ■ Qiyməti: 40 qəpik

# BAKI XƏBƏR

17 YANVAR 2020-ci il

www.baki-xeber.com



# Marsda suyun tükənməsinə nə səbəb olub?

**Beynəlxalq alimlər qrupu, nəzəriyyə və müşahidələrə əsaslanan tədqiqat nəticələrinə uyğun olaraq suyun daha sürətli itirdiyini aşkar edib.**

Planetoloqlar "ExoMars" proqramı çərçivəsində "Trace Gas Orbiter" zond vasitəsi ilə məlumatları təhlil edib. Alimlər suyun tədricən yox olmasının Marsın yuxarı atmosferində baş verdiyini müəyyən edib. Günəş işığı səbəbindən su molekulları hidrogen və oksigen atomlarına bölünür və planetin zəif cazibə qüvvəsi onların kosmosa buxarlanmasına mane ola bilmir. Üstəlik, 80 kilometr yüksəklikdə çox miqdarda rütubət yığılır. Atmosferin bəzi hissələrində rütubət miqdarı çoxdur və nəzəri baxımdan temperaturun verdiyi imkanlara nisbətən atmosfer, 10-100 qat daha çox su buxarını ehtiva edir. Bu cür göstəricilərlə suyun atmosferdən çıxma qabiliyyəti müəyyən fəsillərdə əhəmiyyətli dərəcədə artmış olur. 2019-cu ilin dekabr ayında Amerika astronomlarının Marsda sirli ultrabənövşəyi işıqlar şələlənməsini bildirmişdir, bu da atmosfer səthindən suyun yox olmasını göstərir.


nar

Gəlin birlikdə böyüyək

## "Nar" abunəçilərinin nəzərinə!

**28.01.2020 tarixindən etibarən, "Biznes 2" tarifində dəyişikliklər olacaq.**

Daha ətraflı məlumatı www.nar.az saytından əldə edə bilərsiniz.


## Elan

Binəqədi rayonu, Rəsulzadə qəsəbəsi, sıra 11, ev 17-də yaşayan Əliyeva Xanım Məhmət qızına aid olan əmlaka dair çıxarış itdiyi üçün etibarsız sayılır.

---

Mustafayev Mir Cabid Qeybulla oğlunun adına, Xızı rayonu, Altıağac qəsəbəsi, Mikayıl Müşviq küçəsində yerləşən ünvana verilmiş texniki pasport itdiyi üçün etibarsız sayılır.

---

Məmmədova Fərəh Ələskər qızının adına, Bakı şəhəri, Nəsimi rayonu, Mirqasımov küçəsi, ev 4, mənzil 10 ünvanına verilmiş çıxarış (kupça) itdiyi üçün etibarsız sayılır.

---

Teymurova Lenura Abil qızının adına, Binəqədi rayonu, 7-ci mikrorayon, S.S.Axundov küçəsi, 3132 məhəllə, 1-ci giriş, 17-ci mərtəbə, mənzil 90 A ünvanına "Prestij İnşaat" MTK tərəfindən verilmiş müqavilə və arayış itdiyi üçün etibarsız sayılır.

---

Aslanov Rahib Əminağa oğlunun adına, Bakı şəhəri, H.Zərdabi küçəsi 3166, blok 2, mənzil 74 ünvanına "Sevinc-M" MMC tərəfindən verilmiş müqavilə itdiyi üçün etibarsız sayılır.

---

Rəsulova Xuşgül Sultanməcid qızının adına, Qusar rayonu, Kuzun kəndindəki torpaq sahəsinin mülkiyyətə verilməsinə dair şəhadətnamə (JN-332 F kod 30113028) itdiyi üçün etibarsız sayılır.



## Nəsildən-nəslə ötürülə bilən xərçəng növləri...

**Xərçəngin yaranma səbəbləri siyahısında birinci yerdə genetik amillər göstərilir. Əslində, bu bir az ümumi və sübut olunmamış sözdür.**

Bir xəstəliyin real səbəbi tapılmadıqda çox vaxt "yəqin genetikdir" deyilir. Amma onkoloqlar həqiqətən də bəzi xərçəng növlərinin ailədən insana və nəsildən-nəslə ötürüldüyünü bildirir. Amma, bu, bütün xərçəng xəstələrinin cəmi 10%-dir. "Medicina.az" genetik mutasiya edən xərçəng növlərini təqdim edir. Bu siyahını Onkoloji Xəstəliklərlə Mübarizə Assosiasiyası yayıb. Bir insanın mədə xərçəngi olması ömür boyu 1-2%-dir. Əgər genetik mutasiyası varsa, bu, riski 70% artırır. Adətən, ailevi,nəsil xərçəngi insanı daha gənc yaşlarda yaxalayır. Əsasən 40-50 yaşında artıq büruzə verir. Uşaqlarda onkologiya isə çox zaman nəsillə əlaqəli olmur. Nəsildən keçən onkoloji xəstəliklər : reproduktiv və həzm orqanları sistemini əhatə etməklə 2 qrupa bölünür. Yəni, daha çox süd vəzi, uşaqlıq, yumurtalıq, xaya, prostat, mədə, bağırsaq, mədə altı vəz xərçəngi nəsildən nəslə keçir. Hazırda tibbdə məlum təhlükəli mutasiyaları əvvəlcədən göstərən genetik testlər var. Ailəsində, nəslində həmin xəstəliyi olanlar bu testlərdən keçib, hansı onkoloji xəstəliyin riskini daşıdığını öncədən bilib, ona uyğun tədbirlər görə bilər.





**Qoç** - Qalan sahələrdə gün uğurludur. Cüzi səylərlə həm yeni, həm də ənənəvi işlərdə uğur əldə edə bilərsiniz. Maraqlı görüşlər mümkündür. Amma ciddi münasibətlərə (həm şəxsi, həm də işgüzar) başlamaq üçün tələsməsəniz yaxşıdır.



**Buğa** - Yeni tanışlıqlar üçün yaxşı gündür. Taleyin sizi qarşılaşdırdığı insanlarda güclü təəssürat yaradacaqsınız. Şəxsi həyatla bağlı qərarların qəbulunda həddindən artıq tələskənlik kədərli nəticələrə səbəb ola bilər.



**Əkizlər** - Mənfi tendensiyaların təsiri hələ də güclüdür. Onun təsir dairəsinə şəxsi münasibətlər düşür. Bu isə o deməkdir ki, qohumlar və dostlarla incikliklər, sevgililər arasında münaqişələr ehtimalı çox yüksəkdir.



**Xərçəng** - Gün gözlənilmədən xoş xəbərlər gətirəcək. Narahatlıq və təlaşı unudaraq, bir anda müsbətə köklənə bilərsiniz. Gələcəyinizin asılı ola biləcəyi nüfuzlu şəxslə ünsiyyətdə özünüzü müsbət tərəfdən göstərmək şansını əldən verməyin.



**Şir** - Uğurlu bazarlıq ehtimalı var. Gün bayram hazırlıqları üçün münasibdir. Bu günə romantik görüşlər təyin etmək olar. Enerji ehtiyatınız böyükdür, gün ərzində çox işi çatdıra biləcək və qətiyyən yorulmayacaqsınız.



**Qız** - Çalışqan və həyata yaradıcı yanaşmağı bacaran Qızlar üçün əla gündür. Bürcün nümayəndələri bu gün əsl xariqələr yartmağa qadirdirlər. Hətta, dünyanı yaxşılığa doğru dəyişdirmək missiyası da onlara qeyri-mümkün gəlməyəcək.



**Tərəzi** - Emosional fonun qeyri-sabitliyi o qədər də pis olmayan günü gərgin və yorucu edəcək. Təsadüflər uğursuz təsir bağışlayacaq, bəziləri hər bir xırdalıqda gələcək fəlakətlərin əlamətlərini axtaracaq.



**Əqrəb** - Gözlənilməz çətinliklər yaranacaq. Çıxılmaz hesab edəcəyiniz vəziyyətə düşəcəksiniz. Əsas məsələ günün birinci yarısında təslim olmamaqdır. Bu, çətin vaxtdır. Bir neçə saat dözün, həyat xeyli asanlaşacaq.



**Oxatan** - Özünüzə yol açmaq qabiliyyətiniz bu gün daha parlaq şəkildə özünü büruzə verəcək. Siz yolunuzdakı istənilən maneəni aradan qaldırmağa qadirsiniz. İstənilən mübarizədən qalib çıxacaqsınız.



**Oğlaq** - Sakit adamlar isə tədricən gerçəklikləri daha müsbət tərəfə qəbul etməyə nail olacaqlar. Bu gün çətin və yorucu işlərə girişməyə dəyməz. Yeni başlanğıclar ehtiyatlılıq tələb edir.



**Dolça** - Siz irəliyə doğru özünü doğruldan ləngliklə irəliləyirsiniz. Çünki, tələsməklə bir çox maraqlı şeyi buraxa bilərsiniz. Rəhbərliklə əla yola gedəcəksiniz və o, sizi mükafatlandıra bilər.



**Balıqlar** - Gün ciddi yüklənmələrlə zəngin olacaq. Ona görə də xroniki xəstəliklərdən əziyyət çəkənlər sağlamlıqlarına qarşı xüsusi diqqətli olmalıdırlar. Özünüzü ənənəvi pəhrizdən saxlayın, orqanizminizin möhkəmliyini yoxlamağa cəhd göstərməyin.

*Qoroskop Rusiya və Qərb astroloqlarının proqnozları əsasında hazırlanıb*

## Dünyanın ən qədim şəkilli kitabı tapılıb

**Arxeoloqlar Misirdə dünyanın ən qədim şəkilli kitabını tapıblar.**

Təxminən 4 min il əvvəl hazırlandığı güman edilən bu unikal kitabda fironların ölümdən sonra Osiris tanrısının yanına getməsi izah edilir. "AZƏRTAC" bildirir ki, fironun tabutunun üzərində eramızdan əvvəl 2055-1795-ci illərdə yazılmış "İki yolun kitabı" adlanan bu artefaktda minlərlə talisman və ilahi yazılar var. Onların hamısı ölümdən sonrakı həyat haqqındadır. Talismanların əksəriyyəti piramidalarda olan mətnlərdən köçürülüb və ancaq fironlara aid olub. Bu cür təsvirlər və yazılar Qədim Misirin bir çox abidələrində - obelisklər, sərdabalarda, habelə papiruslarda mövcuddur. Arxeoloqlar qeyd ediblər ki, mətn və şəkillər fironun dəfnindən sonra kahinlərin nəzarəti altında işlənilib. Qədim Misirdə dəfn ayinlərində iştirak edən kahinlər belə düşünüblər ki, fironlar Osiris tanrısının hüzurunda daha xoşbəxt həyat sürəcəklər. Bundan başqa, kitabda hökmdarların tanrının hüzurunda məhkəməyə çıxarılacağı da təsvir edilib.

*Hazırladı: Ramil QULİYEV*


Baş redaktor: *Aydın Quliyev*

Baş redaktorun müavini: *Tahir Tağıyev*

Redaksiyanın ünvanı: *Bakı şəhəri, Mətbuat pr. 529-cu məhəllə, 6-cı mərtəbə*

Tel-faks: *510-87-40; 510-87-38; 510-87-39*

*e-mail: azer22@mail.ru*

**Reyestr № 0106-P219-45846**

Qəzet həftədə 5 dəfə çıxır. (Bazar və bazar ertəsindən başqa). «BZ»-də çap olunur.

*Sifariş: №2514* *Tiraj: 3050*

Qəzetdə «Olaylar» və «Trend» informasiya agentliklərinin materiallarından istifadə edilir.

Reklam mətninə görə qəzet məsuliyyət daşımır.